"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Səs

№ 040 (6723)

3 mart 2023-cü il.
Qiyməti 60 qəpik

İlham Əliyevdən önəmli və ünvanlı mesajlar!

Prezident: "Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir"

"SƏS TV-yə dəymiş ziyana görə məhkəməyə müraciət olunacaq"

Zərərdidə tələbələr: Distant təhsillə həkim olar?



"SƏS" TV-yə qarşı hücumun arxasında dayananlar hansı qüvvələrdir?

İran niyə təklənib?

Bakıda mənzildən 120 min dollarlıq qızıl oğurlanıb

Dünya yeni düzəndə!

İlham Əliyev: "Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir"

Bu gün beynəlxalq münasibətlər sistemində güclü ölkə olan Azərbaycan regionun lider dövləti kimi bu ərazidə baş verən istənilən məsələ ilə əlaqədar ölkəmizin maraqları nəzərə alınır. Azərbaycan nəinki regional layihələrin iştirakçısı, həmçinin, təşəbbüskarı kimi çıxış edir. Bu uğurların əsasında Azərbaycanın uzaqgörən və praqmatik xarici siyasət strategiyası dayanır. Azərbaycanın dinamik inkişafı, bütün sahələri əhatə edən məqsədyönlü islahatlar və əldə edilən nailiyyətlər beynəlxalq müstəvidə yüksək qiymətləndirilir.

Qeyd edək ki, bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir. Dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı isə, məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayır. Ölkəmizin Qoşulmama Hərəkatına üzv olduqdan cəmi 8 il sonra ölkələrin yekdil qərarı ilə 2019-2022-ci illər üzrə təşkilata sədrlik etmək kimi statusa malik olması da Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini gücləndirməsi, ikitərəfli və çoxtərəfli münasibətlərini inkişaf etdirməsi baxımından ölkəmizə mühüm dividendlər gətirir. Azərbaycan Qoşulmama Hərəkatına qlobal anlamda çox çətin bir dönəmdə sədrliyi öz üzərinə götürməsinə baxmayaraq, çox effektiv və konstruktiv sədrlik nümayiş etdirdi.

REGİONDA APARICI AKTORA ÇEVRİLƏN AZƏRBAYCAN

Bu gün paytaxt Bakı daha bir beynəlxalq tədbirə ev sahibliyi edir. Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü martın 2-də işə başladı. Zirvə görüşünə 70-ə yaxın ölkənin dövlət və hökumət başçıları, 5 ölkənin, o cümlədən Bosniya və Herseqovina, Türkmənistan, Özbəkistan, İraq, Liviyanın prezidentləri, üç ölkənin - Kuba, Qabon, Tanzaniyanın Vitse-prezidentləri, Əlcəzair və Keniyanın Baş nazirləri, müxtəlif ölkələrin yüksək səviyyəli nümayəndələri, həmçinin beynəlxalq təşkilatların rəhbərləri - Dünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvili, Beynəlxalq Miqrasiya Təşkilatının (BMT) Baş direktoru Antonio Vitorino, BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovaya, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Xusrav Noziri və digərləri, eyni zamanda, nazirlər, nazir müavinləri, səfirlər və s. iştirak ediblər.

Dünyada nüfuzu getdikcə artan və regionda aparıcı aktora çevrilən Azərbaycan Qoşulmama Hərəkatına sədrliyinin COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı zamanda Bakı qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk dövlətlərdən oldu.

"Sədrliyimizin müddəti yekdil qərarla daha bir il uzadıldı. Biz Azərbaycanın sədrliyinə göstərdikləri dəstəyə görə üzv dövlətlərə minnətdarıq". Bu sözləri Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışı zamanı bildirib: "Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir. Pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı oldu".

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında QH-nin COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. "Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürdük. Zirvə toplantısında məlumat bazası hazırlamaq üçün Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılması qərara alındı. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin ehtiyaclarını müəyyən etmək üçün bu məlumat bazasına istinad edib. Mən həmin Zirvə toplantısında BMT Baş Assambleyasının liderlər səviyyəsində xüsusi sessiyasının çağırılmasını təklif etmişdim. Bu təklif BMT-yə üzv dövlətlər arasında böyük dəstək qazandı". Gürcüstan - deyə dövlət başçısı diqqətə çatdırıb. Həmin ilin dekabrında isə BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən Xüsusi Sessiyası təşkil olundu. Bu sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir hesab olunur. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

Azərbaycanın sədrliyinin ən böyük uğurlarından biri də QH-nin təsisatlanması məsələsidir. Ölkəmizin sədrliyi dönəmində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatı təsis olunub. Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq Şuşada Hərəkata üzv ölkələrin gənclərini birləşdirən Gənclər Təşkilatı yaradıldı. "Azərbaycan Hərəkatın institusional inkişafına güclü dəstək verir. Biz Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması təşəbbüsü ilə çıxış etdik. Şəbəkənin ilk iclası 2022-ci ilin iyun ayında Bakıda keçirilib. Bundan başqa, 2022-ci ilin iyulunda Şuşa Razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradılıb. Təşkilatın daimi katibliyi Bakıda yerləşəcək. Məqsədimiz institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır", - deyə Prezident qeyd edib.

"YENİ DÜNYA DÜZƏNİ YENİDƏN FORMALAŞMAQDADIR"

Bildiyimiz kimi, bütün dünyanı koronavirus pandemiyası cənginə aldığı zamanda onun qarşısını almaq və yoluxma sayını minimuma endirmək məqsədi ilə Azərbaycanda təxirəsalınmaz tədbirlər davamlı olaraq həyata keçirilməyə başlandı. Əlbəttə ki, ölkəmizdə pandemiya ciddi nəzarət altında saxlanıldığından Azərbaycan "COVID-19"-la mübarizədə qabaqcıl ölkələr sırasında yer aldı. Yoluxma hallarının aşkarlanması, xəstəliyin yayılmasının qarşısının alınması və insanların həyatının xilas edilməsi və s. məqsədilə geniş tədbirlər reallaşdı. Bu günə qədər dövlətimiz tərəfindən koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi, bəzi sosial izolyasiya tədbirlərinin tətbiq edilməsi barədə qərarlar verilib və əməli tədbirlər reallaşıb. Ölkəmizdə əhalinin vaksinasiya işləri uğurla reallaşıb və davam etməkdədir. Vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. Əlbəttə ki, Azərbaycan "COVID-19"-la bağlı milli və beynəlxalq səviyyədə ciddi səylər göstərərək qlobal səyləri səfərbər edən ilk ölkələrdən biridir.

Ardı Səh. 3

Dünya yeni düzəndə!

İlham Əliyev: "Qoşulmama Hərəkatının sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir"

Əvvəli Səh.2

Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırdı və Azərbaycanın koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları etdi. Eləcə də dörd ölkəyə isə təmənnasız olaraq 150 min doza vaksin təqdim olundu. "Biz bəzi varlı ölkələrin həyata keçirdiyi "peyvənd millətçiliyi"ni xüsusilə pandemiya ilə mübarizədə ciddi maneə kimi qiymətləndirdik" - deyən Prezident qeyd edib ki, nəticədə Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları

Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu:"Qoşulmama Hərəkatının pandemiya ilə mübarizə üçün qlobal səylərin səfərbər edilməsində liderliyi Hərəkatın nüfuzunu və məsuliyyətini bir daha nümayiş etdirdi. Azərbaycan əksəriyyəti bizim Qoşulmama Hərəkatı ailəsinin üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardım göstərib".

Azərbaycan pandemiya ilə mübarizə sahəsində qlobal səylərin səfərbər edilməsi üçün mühüm addımlar atmış oldu. Azərbaycan peyvənd millətçiliyinə qarşı ən çox mübarizə aparan, pandemiyanın qarşısının alınması üçün real iş görən ölkələrdən biri kimi tanınıb və qəbul edilib. Peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi də mühüm əhəmiyyət kəsb edir. Dünya ölkələrinin əksəriyyəti özünə qapandığı dövrdə Azərbaycanın pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdəndir.

Əlbəttə ki, beynəlxalq ictimaiyyət və inkişaf etməkdə olan ölkələr COVID-19-dan sonra bərpa mərhələsindədir. Bu Sammit yalnız sağlamlıqla məhdudlaşmır, eyni zamanda, bəzi ölkələrin iqtisadi inkişafı ilə bağlı problemlərinin həlli istiqamətində rola malikdir.

Cənab Prezident İlham Əliyev çıxışında son bir neçə onillikdə mövcud olan beynəlxalq təhlükəsizlik arxitekturasının hazırda köklü dəyişikliklərlə üzləşdiyini və multilateralizmin təhlükə altında olduğunu da vurğulayıb: "Beynəlxalq hüququn norma və prinsiplərinin aşınması beynəlxalq düzəni daha da təhdid edir. Suverenliyin və ərazi bütövlüyünün pozulması, dövlətlərin daxili işlərinə müdaxilə halları daha çox müşahidə olunmaqdadır. Aparıcı beynəlxalq təşkilatların qərarları ya icra olunmur, ya da selektiv yanaşma və ikili standartlar tətbiq edilir. Yeni dünya düzəni yenidən formalaşmaqdadır. İndi dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir ki, onun fəsadları dünyanın qalan hissəsində də hiss olunur. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir".

"BMT TƏHLÜKƏSİZLİK ŞURASI KEÇMİŞİ XATIRLADIR VƏ İNDİKİ REALLIĞI ƏKS ETDİRMİR"

Dünyada uzun illərdir müzakirə olunan digər mühüm məsələ BMT sistemində aparılan islahatların olduğunu bildirən Cənab Prezident BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmədiyini söyləyib. Onun sözlərinə görə, təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir ki, orada daha çox ölkə təmsil olunsun və coğrafi baxımdan daha ədalətli olsun: "Bir daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə növbəli şəkildə bu yerə sahib olmalıdır. Mən Qoşulmama Hərəkatına üzv ölkələri bu məsələ ilə bağlı məsləhətləşmələrə başlamağa və öz fikirlərini BMT-nin müvafiq komitəsinə təqdim etməyə çağırıram. Biz Təhlükəsizlik Şurasında Afrikaya da daimi yerlərin verilməsi fikrini dəstəkləyirik".

Dünyada hökm sürən pandemiya "2030: Davamlı İnkişaf Məqsədləri"nin icra olunmasına mənfi təsirini göstərib və bu baxımdan 2030-cu il gündəliyinin icrasına vaxtında nail olmaq üçün qlobal səylər gücləndirilməlidir.

DƏSTƏKLƏMƏYƏ DƏVƏT EDİRİK"

COVID-19 pandemiyası dövründə olduğu kimi, Azərbaycan Qoşulmama Hərəkatının ehtiyacı olan üzv ölkələrinə maliyyə və humanitar yardım göstərməyə davam edəcəyini qeyd edən dövlətimizi başçısı iki qlobal çağırışı bəyan edib: "Bunlar Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləməkdir. Məmnuniyyətlə elan edirəm ki, Azərbaycan ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırır. İnanıram ki, Qoşulmama Hərəkatının üzvləri və beynəlxalq ictimaiyyətin digər üzvləri Azərbaycanın təşəbbüsünü dəstəkləyəcək və bizə qoşularaq postpandemiya bərpası dövründə ehtiyacı olan ölkələrə dəstək verəcəklər".

Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi ədaləti bərpa edərək regionda yeni reallıqlar yaratmış oldu. Torpaqlarımızın 30 ilə yaxın işğal altında olmasına baxmayaraq, münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa etdi. BMT Təhlükəsizlik Şurası qətnamələrinin icrasını özü təmin etdi. "BMT Təhlükəsizlik Şurası bu gün səmərəli deyil. Məsələn, Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə günün içində icra olunub. Lakin Azərbaycana gəldikdə isə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə 30 ilə yaxın bir müddətdə məhəl qoyulmamışdır", - deyə bildirən Cənab Prezident onu da qeyd edib ki, işğal illəri ərzində Azərbaycanın yüzlərlə şəhər və kəndi Ermənistan tərəfindən məqsədyönlü şəkildə dağıdılmış, bütün mədəni və dini abidələr talan və qarət edilmişdir: "Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş ölkələr arasındadır. İkinci Qarabağ müharibəsindən sonra, yəni 2020-ci ilin noyabr ayından bəri 300 azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya yaralanmışdır. Ölkə üçün humanitar minatəmizləmənin böyük əhəmiyyətini nəzərə alaraq, Azərbaycan hazırda xüsusi milli Dayanıqlı İnkişaf Məqsədinin müəyyən edilməsini nəzərdən keçirir. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri və minatəmizləmə fəaliyyəti arasında birbaşa əlaqə görür, çünki minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin geri dönməsini ləngidir. Azərbaycan minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Biz Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə dəvət edirik. Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxunun mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu nəzərə alaraq, mən səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif etmək istəyirəm".

"BİZ QOŞULMAMA HƏRƏKATINA ÜZV OLAN ÖLKƏLƏRİ BU TƏŞƏBBÜSÜ

"Bu məqsədlə biz BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif etmişik", - deyən Prezident bildirib ki, bu panel postpandemiya dövrü üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlaya bilər. Odur ki, Cənab Prezident Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə çağırıb: "Biz suverenliyə, milli sahibliyə, bərabərliyə və qarşılıqlı mənafeyə hörmət prinsiplərini rəhbər tutan Cənub-Cənub əməkdaşlığını daha da gücləndirməliyik. Həmin gündəlik Cənub ölkələrinin özləri tərəfindən öz milli ehtiyac və prioritetlərinə uyğun olaraq təşkil edilib. Bu, kənardan məcburi qaydada qoyulmuş bir gündəlik deyil".

Bildiyimiz ki, Azərbaycan zəfər çaldıqdan və münaqişənin bitməsindən qısa müddət sonra Azərbaycan sülh razılaşması üçün ərazi bütövlüyünün və suverenliyin tanınmasına əsaslanan beş əsas prinsipi Ermənistana təqdim edib: "Mən Qoşulmama Hərəkatına üzv ölkələrə Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə, həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə birtərəfli və qərəzli bəyanatların qəbuluna imkan verməməkdə göstərdikləri qətiyyətə görə təşəkkür etmək istəyirəm. Sonda isə sizi əmin etmək istəyirəm ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi və Hərəkatın beynəlxalq arenada mövqeyinin güclənməsi üzrə səylərini əsirgəməyəcəkdir".

Zümrüd BAYRAMOVA

“Azərbaycan Qoşulmama Hərəkatına uğurla sədrlik edib”

Prezident İlham Əliyev Bakıda səfərdə olan bir sıra dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşüb



Prezident İlham Əliyev martın 2-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb. Türkmənistan Prezidenti Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünə dəvətə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edib, ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə aktiv şəkildə fəaliyyət göstərdiyini vurğuladı və bu münasibətlə Prezident İlham Əliyevə təbriklərini çatdırıb. Sərdar Berdiməhəmmədov beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında Hərəkatın mühüm rol oynadığını qeyd edib. O, həmçinin pandemiyaya qarşı mübarizəyə Qoşulmama Hərəkatı çərçivəsində xüsusi diqqətin yetirildiyini vurğulayıb.

Prezident İlham Əliyev Zirvə görüşündə iştirakına görə Prezident Sərdar Berdiməhəmmədova təşəkkürünü bildirib, bu Zirvə görüşü əsnasında ikitərəfli əlaqələrimizin müzakirəsi üçün yaxşı imkanların da olduğunu deyib. Dövlətimizin başçısı Azərbaycanın Türkmənistanla ikitərəfli əlaqələrin inkişafına daim xüsusi diqqət yetirdiyini qeyd edib, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu, mədəni, humanitar sahələrdə əlaqələrin inkişaf etdiyini bildirib.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin başa çatmaqda olduğunu qeyd edib. Ölkəmizin Hərəkatın beynəlxalq münasibətlərdəki rolunun artırılmasında maraqlı olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycanın bu xüsusda bir sıra təşəbbüslərlə çıxış etdiyini deyib. Eyni zamanda, diqqətə çatdırıb ki, bu gün dünya düzəninin yenidən formalaşması prosesi baş verir və Qoşulmama Hərəkatı bu prosesdə öz rolunu oynamalıdır.

Azərbaycan Prezidenti İlham Əliyev martın 2-də Liviya Dövləti Prezident Şurasının sədri Məhəmməd Yunis Əl-Mənfi ilə görüşüb. Dövlətimizin başçısı Məhəmməd Yunis Əl-Mənfiyə Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirakına görə təşəkkürünü bildirib. Prezident İlham Əliyev Azərbaycanla Liviya arasında siyasi əlaqələrin çox yaxşı olduğunu, ikitərəfli münasibətlərimizin inkişafı üçün geniş imkanların mövcudluğunu qeyd edib.

Azərbaycanın xarici siyasətində Ərəb dövlətləri ilə əlaqələrin inkişafının prioritetlərdən biri olduğunu deyən dövlətimizin başçısı Ərəb Dövlətləri Liqasının ötən il Əlcəzairdə keçirilən Zirvə toplantısında iştirakını məmnunluqla xatırlayıb, bu tədbirin Azərbaycanın Ərəb dövlətləri ilə münasibətlərin genişləndirilməsi işinə mühüm töhfə verdiyini vurğulayıb.

Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşünün yüksək səviyyədə təşkil olunduğunu və onun böyük əhəmiyyət kəsb etdiyini deyən Məhəmməd Yunis Əl-Mənfi bu tədbirə dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizin sədrlik dövründə bu Hərəkatın inkişafı üçün ciddi səylər göstərdiyini və töhfələr verdiyini qeyd edib. Ölkəsinin Azərbaycanla əlaqələrdə maraqlı olduğunu qeyd edən Məhəmməd Yunis Əl-Mənfi deyib ki, beynəlxalq gündəlikdə duran bir çox məsələlərə münasibətdə Azərbaycanın və Liviyanın mövqeləri üst-üstə düşür.

Azərbaycan Prezidenti İlham Əliyev dünən Əlcəzair Xalq Demokratik Respublikasının Baş naziri Ayman Benabderrahman ilə görüşüb. Prezident İlham Əliyev Əlcəzair Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında iştirakını məmnunluqla xatırlayıb. Dövlətimizin başçısı səfər çərçivəsində Azərbaycanla Əlcəzair arasında ikitərəfli əlaqələrin perspektivlərinə dair müzakirələrin də aparıldığını diqqətə çatdırıb. Baş nazir Əlcəzair Prezidenti Abdelmacid Tebbunun səmimi salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev martın 2-də Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösini qəbul edib. Tsaba Körösi Qoşulmama Hərəkatının Sammitinə dəvətə görə minnətdarlığını bildirib, Hərəkatın beynəlxalq münasibətlər sistemində mühüm rola malik təsisat olduğunu qeyd edib. O, Azərbaycanın sədrliyi dövründə Hərəkatın BMT Baş Assambleyasında və ümumiyyətlə, beynəlxalq münasibətlərdə rolunun daha da gücləndiyini deyib, ölkəmizin Hərəkatın təsisatlanması üçün praktiki təkliflərlə çıxış etdiyini vurğulayıb.

Azərbaycan Prezidenti İlham Əliyev dünən həmçinin Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş direktoru Rafael Mariano Qrossini qəbul edib. Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Baş direktoru Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurlu olmasına görə dövlətimizin başçısını təbrik edib. Bildirib ki, Azərbaycanın bu Hərəkata sədrliyi praktiki xarakter daşıyaraq beynəlxalq sülh və təhlükəsizliyə böyük töhfə verib, Hərəkatın dünyada rolunu daha da gücləndirib. Rafael Mariano Qrossi ölkəmizlə rəhbəri olduğu agentlik arasında səmərəli əməkdaşlığın inkişaf etdiyini diqqətə çatdırıb. Prezident İlham Əliyev Rafael Mariano Qrossiyə tədbirdə iştirakına görə minnətdarlığını ifadə edib, Azərbaycanın Atom Enerjisi üzrə Beynəlxalq Agentliklə əməkdaşlığa böyük önəm verdiyini deyib.

Dövlətimizin başçısı nüvə texnologiyasından dinc məqsədlər üçün istifadənin vacibliyini bildirdi. Bu xüsusda kənd təsərrüfatı, tibb, neft-kimya sahələrində Azərbaycanla agentlik arasında əlaqələrin praktiki əhəmiyyəti qeyd edildi.

Prezident İlham Əliyev nüvə təhlükəsizliyi probleminə toxunaraq Ermənistanda Metsamor Atom Elektrik Stansiyasının fəaliyyət göstərdiyini, onun Azərbaycana, Türkiyəyə, Ermənistana və bütün regiona böyük nüvə təhlükəsi yaratdığını bildirib, bu stansiyanın köhnə texnologiya ilə çalışdığını, onun ciddi texniki problemlərinin olduğunu diqqətə çatdırıb və Metsamordan qaynaqlanaraq bəzi nüvə materiallarının qanunsuz ticarətinin aparılmasının narahatlıq doğurduğunu vurğulayıb.

QHT rəsmilərinin Qoşulmama Hərəkatına BAXIŞI

Martın 2-də Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edib. Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edən Əlcəzair Xalq Demokratik Respublikasının Baş naziri Ayman Benabderrahmanı, Keniyanın Baş naziri Uakylif Musalia Mudavadini, Tanzaniyanın Vitse-prezidenti Filip İsdor Mpanqonu, Kuba Respublikasının Vitse-prezidenti Salvador Antonio Valdes Mesanı, Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının üzvü, Ras əl-Xeymə Əmirliyinin hakimi Əlahəzrət Şeyx Saud Bin Saqr Al Qasimini, Qabonun Vitse-prezidenti xanım Rouz Kristian Ossuka Rapondanı, Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösini, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçi, İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidi, Liviyanın Prezident Şurasının sədri Məhəmməd Yunis Əl-Mənfini, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovu, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi qarşılayıb. SİA mövzu ilə bağlı QHT rəsmiləri arasında sorğu keçirib.

Azəri-Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı: "Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür və ona ev sahibliyi edir. Bu Qoşulmama Hərəkatı müstəqil təşkilatların, dövlətlərin bir araya gəlməyidir. Azərbaycan pandemiya dövründə də Qoşulmama Hərəkatının üzvləri vasitəsilə bu məsələni müzakirəyə çıxardı. Onlar həm də BMT-nin üzvləri olduğuna görə Qarabağ savaşında Azərbaycanın əleyhinə ciddi bir qərar verilmədi. Qoşulmama Hərəkatı həmin dövrdə də Azərbaycanı müdafiə etdilər. Ona görə də düşünürəm ki, bu hərəkatın üzvü olmaq və ona ev sahibliyi etmək bəzi məsələlərdə Azərbaycana xeyir verər, nəinki zərər. Avropa Şurasında Azərbaycan əleyhinə nə qədər qərarlar çıxarırlar. Qoşulmama Hərəkatına ev sahibliyi etməyimiz böyük əhəmiyyət kəsb edir".

"Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi" İctimai Birliyinin sədri Nadir Azəri: "Prezident İlham Əliyevin rəhbərliyi ilə düşünülmüş və məqsədyönlü siyasət həyata keçirən Azərbaycan həm daxildə, həm də xaricdə davamlı uğurlar qazanır. Bu uğurlar özünü ölkəmizin beynəlxalq aləmdəki nüfuzunda da göstərir. Məhz bunun nəticəsidir ki, nüfuzlu beynəlxalq qurumlara sədrlik Azərbaycana həvalə edilir. Azərbaycan bu sahədə də ona göstərilən etimadı yüksək səviyyədə doğruldur. Biz bununla bağlı olaraq çox misal çəkə bilərik. Lakin Azərbaycanın elə Qoşulmama Hərəkatına sədrliyi dövründə əldə edilən uğurlara ötəri nəzər salmaq da, deyilənləri təsdiqləyir. Ümumilikdə qeyd edə bilərəm ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi bu quruma yeni nəfəs gətirib. Cənab Prezident İlham Əliyevin martın 2-də Bakıda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündəki çıxışında bəyan etdiyi kimi bu Hərəkat son bir neçə ildə beynəlxalq münasibətlərdə mühüm faktorlardan biri olub. Bu nüfuzun artmasında Azərbaycanın sədrliyi müddətində Hərəkatın dünyadakı proseslərə çevik və zamanında reaksiyası mühüm rol oynayıb.

Azərbaycanın beynəlxalq qurumlara uğurla sədrlik etmək, həmin qurumun fəaliyyətini daha da canlandırmaq potensialına malik olmasını artıq bütün dünya bilir. Digər tərəfdən hazırda Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etməklə onun məqsəd və məramlarının təşviq olunmasına, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın gücləndirməsinə əsaslı töhfəsini verir. Öz növbəsində bu təşkilat da öz ənənəsinə sadiq qalaraq Vətən müharibəsi dövründə Azərbaycana dəstəyini davam etdirdi. Qoşulmama Hərəkatına üzv ölkələr Azərbaycanın ədalətli mövqeyini dəstəklədi, həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə birtərəfli və qərəzli bəyanatların qəbuluna imkan vermədilər".

"Ortaq Dəyərlər" İctimai Birliyinin sədri Aqil Camal: "Azərbaycan artıq xeyli müddətdir ki, Qoşulmama Hərəkatına uğurlu rəhbərlik edir. Azərbaycanın bu təşkilata effektiv rəhbərliyi qurum üzvü olan bir çox dövlətlər tərəfindən qeyd olunub. Hazırda keçirilən toplantılardakı çıxışlarda da bu fikirlər səsləndirilir. Bu baxımdan Azərbaycanın Qoşulmama Hərəkatını dünyada ənənəvi mövcud olan başqa beynəlxalq formatlardan fərqli bir şəkildə dünyaya təqdim etməsi özü üçün də mühüm əhəmiyyət kəsb edir. Qoşulmama Hərəkatını fərqləndirən cəhətlərdən biri də onun üzvlərinin sayının həddindən artıq çox olmasıdır.

Bildiyiniz kimi, 44 günlük müharibədən sonra Azərbaycan diplomatik müstəvidə öz haqlarını qorumaq üçün mübarizəsini davam etdirir. Eyni zamanda, Azərbaycana qarşı dünyanın bir sıra beynəlxalq dairələrində ədalətsiz mövqe sərgilənir. Bu baxımdan Qoşulmama Hərəkatına üzvlük Azərbaycana bir çox hallarda imkan verir ki, bir sıra beynəlxalq platformalarda dövlətimiz əleyhinə irəli sürülən hansısa qətnamələrin, qərarların rədd edilməsində bu təşkilata üzv olan ölkələrlə birgə hərəkət edilsin. Bununla bağlı artıq bir sıra müsbət nümunələr də var. Hesab edirəm ki, Qoşulmama Hərəkatı yeni dövrdə önəmli rol oynaya bilər".

"Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri Əhməd Abbasbəyli: "Qoşulmama Hərəkatı 1955-ci ildə yaranıb. Dünyanın həm nüfuz, həm də üzvlərinin sayı baxımından ikinci

ən böyük beynəlxalq təşkilatıdır. Bu Hərəkata 120 dövlət üzvdür. Qoşulmama Hərəkatı adından da göründüyü kimi, digər hərbi və siyasi bloklara qoşulmayan dövlətlərin birləşdiyi qurumdur.

Azərbaycan bu Hərəkatın 2011-ci ildən etibarən üzvüdür. Həmin dövrdən bu yana Hərəkatın bütün fəaliyyətində çox aktiv iştirak edir. Azərbaycanla bağlı məsələlərin burada müzakirə olunması və müəyyən sənədlərin qəbul olunmasına nail olunmuşdu.

2012-ci ildən başlayaraq Qoşulmama Hərəkatı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yekun sənədi qəbul etmiş və bu sənədə bir neçə bənd daxil edilmişdi ki, Azərbaycan və Ermənistan arasında münaqişənin dövlətlərin ərazi bütövlüyünə qarşı hörmət prinsiplərinə dəstək ifadə etmişdir.

2018-ci ildə Bakıda keçirilmiş və eyni zamanda BMT TŞ-nın qəbul etdiyi sənədləri yerinə yetirməməsi ilə bağlı təəssüf və bu münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həll edilməsinə dəstək ifadə edən bir sənəd də qəbul edilib.

Müxtəlif dövrlərdə beynəlxalq hüquq çərçivəsində həll edilməsi ilə bağlı bu cür sənədlər qəbul edilmiş və Azərbaycan da bu proseslərdə daim öz fəallığı ilə seçilmişdir.

44 günlük müharibədə qazandığımız qələbədən sonra Qoşulmama Hərəkatının nümayəndələri Azərbaycanın mövqeyini birmənalı olaraq müdafiə edir. Qoşulmama Hərəkatı Azərbaycan üçün siyasi müzakirə müstəvisidir. Eyni zamanda, öz mövqeyini ifadə etmək üçün siyasi bir meydandır. Azərbaycan da bu siyasi meydandan çox uğurla istifadə edir".

Hüquqi Təhlil və Araşdırmalar İctimai Birliyinin sədri Ramil İskəndərli: "Qoşulmama Hərəkatı BMT-dən sonra dünyanın ikinci ən nüfuzlu təsisatı hesab olunur. Burada 120 ölkə birləşir. Bu Hərəkatda həm böyük, həm də kiçik ölkələr təmsil olunur. Azərbaycan Qoşulmama Hərəkatı vasitəsilə beynəlxalq münasibətlər sistemində sıradan iştirakçı dövlət kimi deyil, həmçinin beynəlxalq proseslərdə qərarverici ölkələrdən birinə çevrilir. Bunun bariz nümunəsi pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək, vaksinlərin qeyri-bərabər paylanmasının qınanılması təşəbbüsü ilə çıxış edən, Qoşulmama Hərəkatı vasitəsilə, Azərbaycan olmuşdur.

Azərbaycan Qoşulmama Hərəkatının institusionallaşmasında əsas lider rolunu oynayır. Belə ki, Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradıldığı faktının çox əhəmiyyətli addım olduğunu vurğulamaq lazımdır.

Azərbaycanın eyni zamanda özünün milli maraqlarının müdafiə olunmasında, Azərbaycan həqiqətlərinin beynəlxalq miqyasda tanıdılmasında Qoşulmama Hərəkatının rolu çox vacibdir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatı çərçivəsində hər dəfə olduğu kimi, bu dəfə də Azərbaycanı narahat edən məsələləri beynəlxalq gündəmə çıxardı. Konkret olaraq, üzv ölkələrin bir çoxunun mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu nəzərə alaraq, Prezidentin bu məsələnin qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifinin də yaxınlarda reallaşacağı ilə Azərbaycanın mina probleminin beynəlxalq gündəmdə olacağı ehtimalı realdır.

Milli maraqlarımızın bu beynəlxalq paltforma vasitəsilə müdafiəsinin effektivliyi eyni zamanda Qoşulmama Hərəkatının üzv ölkələrinin Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsi ilə, eləcə də 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə birtərəfli və qərəzli bəyanatların qəbuluna imkan verməməsi ilə özünü bariz şəkildə göstərdi. Təsadüfi deyil ki, Prezident İlham Əliyev bu dəstəyə görə Qoşulmama Hərəkatı üzvlərinə öz təşəkkürünü bildirdi.

Həmsöhbətimiz vurğulayıb ki, "ümumiyyətlə, Azərbaycan hal-hazırda zəngin dövlətçilik tarixinin ən güclü dövrünü yaşamaqdadır. Qarşıda duran perspektivlər imkan verir söyləyək ki, Azərbaycan regional və beynəlxalq əməkdaşlıq sayəsində daha da qüdrətli dövlətə çevriləcək".

"Vətəndaş Maarifləndirilməsi" İctimai Birliyinin icraçı direktoru Elşad Məmmədli: "Azərbaycan Qoşulmama Hərəkatının əsas simalarından biridir və hazırda bu quruma sədrlik edir. Hər kəs qəbul edir və dünya gücləri də bunun fərqindədir ki, Qoşulmama Hərəkatı yetərincə nüfuz qazanıb, hazırda dünyada gedən proseslərə mühüm təsiri olan bir təşkilata çevrilib. Azərbaycan bu təşkilatda təmsil olunmaqla dünya

proseslərində nə qədər ədalətli, tərəfsizliyini ortaya qoymuş oldu.

QH faktiki olaraq BMT-dən sonra dünyada ən vacib, mühüm təşkilatdır.

O da sirr deyil ki, artıq bu Hərəkatın çərçivəsinin, imkanlarının, təsir mexanizmlərinin daha da genişləndirilməsi zərurətə çevrilib.

Biz bilirik ki, Azərbaycan Hərəkatın önəmli siması, üzvü olaraq, həm quruma sədrlik etdiyi dövrdə, həm də ondan əvvəlki vaxtlarda xeyli sayda mühüm, dünyəvi əhəmiyyət kəsb edən ciddi təşəbbüslərlə, təkliflərlə çıxış edib. Azərbaycan Prezidenti İlham Əliyev bir müddət öncə hərəkatın sədri olan dövlətin BMT Təhlükəsizlik Şurasında rotasiya qaydasında daimi üzvü olması barədə təşəbbüslə də çıxış edib.

Qoşulmama Hərəkatında mühüm sima olmaqla, Azərbaycan dünyanın diqqətini özünə bu istiqamətdən də artırmış olub. Eyni zamanda onu da vurğulamalıyam ki, QH də Azərbaycanının oradakı rolundan çox qazanıb. Azərbaycan hazırda dünyada mühüm rola, çəkiyə malik olan ölkələrdən biridir və bundan üzvü, hazırda sədri olduğumuz təşkilat da qazanır.

Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının həyatında tam yeni bir mərhələ yarandığını əminliklə söyləyə bilərik. Əlbəttə, Qoşulmama Hərəkatında bizim ən böyük qazancımız Qarabağın azadlığında bu qurumun verdiyi dəstək oldu. Qoşulmama Hərəkatı birmənalı olaraq Vətən Müharibəsində Azərbaycanın yanında oldu. Dünyanın böyük bir parçası faktiki olaraq bu xətlə bizim haqlı mövqeyimizi dəstəklədi. Təbii ki, bu, Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin nəticəsində baş vermişdi.

Bakıda 1-3 mart tarixlərində Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşü də çox yüksək əhəmiyyətə malikdir və burada mühüm qərarlar, anlaşmalar verilir, sənədlər, memorandumlar imzalanır. Hazırda dünyanın diqqəti bu tədbirdən dolayı həm də Bakıdadır".

Ləman Əlizadə

ANALİTİK+AKTUAL

”SƏS” TV-yə qarşı hücumun arxasında dayananlar hansı qüvvələrdir?

Mümkün ehtimallar hədəfləri müəyyən edir

Ölkəmizdə fəaliyyət göstərən nüfuzlu saytlara qarşı törədilən kiberhücumlar faktı ilk dəfə deyil ki, baş verir. Lakin bu günlərdə ”SƏS” media qrupunun tərkibində fəaliyyət göstərən və 11 ildir özünə yüz minlərlə izləyici auditoriyası toplayan ”SƏS” TV-nin kiberhücuma məruz qalmaqla YouTube kanalından tamamilə silinməsi illər ərzində əldə edilmiş uğurları necə deyərlər, bir anda yox edir. Qeyd edək ki, ”SƏS” TV ilə yanaşı, ”Yeni Müsavat”ın da media qrupuna məxsus YouTube kanalı eyni aqibəti yaşayıb və bu xüsusda müxtəlif ehtimallar yaranmağa başlayır. Həmin ehtimalları sadalayana qədər xatırladaq ki, artıq Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi insidentlə bağlı rəsmi məlumat yayıb.



Məlumatda bildirilir ki, YouTube kanallarımıza haker hücumu ölkəmizin informasiya təhlükəsizliyinə təhdiddir: ”1 mart 2023-cü il tarixində Azərbaycanın ”SƏS” və ”Yeni Müsavat” media qruplarına məxsus ”YouTube” platformasında fəaliyyət göstərən eyniadlı kanallar kənar müdaxiləyə məruz qalmış, onların arxivi silinmişdir. Ölkəmizin informasiya təhlükəsizliyinə yönəlmiş bu hücum bir daha sübut edir ki, milli informasiya məkanımız daim ictimai fikri çaşdırmaq istəyən qüvvələrin nəinki dezinformasiya və yanlış xəbərlər yayılması, habelə infrastruktura kənar müdaxilə etməklə informasiyanın mənbədən silinməsi və dəyişdirilməsi üsulundan istifadə etməklə hədəfinə çevrilir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ”SƏS” və ”Yeni Müsavat” media qruplarının ”YouTube” kanallarına haker hücumunu ölkəmizin informasiya təhlükəsizliyinə təhdid hesab edir və bu kimi halların baş verməsinin qarşısının alınması məqsədilə media qurumlarını öz resurslarının mühafizəsinə daha həssas yanaşmağa, eyni zamanda həm media qurumlarını, həm də aidiyyəti dövlət orqanlarını qarşılıqlı əməkdaşlıq çərçivəsində tədbirlər görməyə çağırır”.

Qeyd edək ki, Mətbuat Şurası da insidentlə bağlı bəyanat yayıb. Bəyanatda bildirilir ki, ”Müsavat TV” və ”SƏS” TV haker hücumuna məruz qalıb. Bu media orqanlarının emailləri ələ keçirilib, bazaları silinib: ”Mətbuat Şurası ölkəmizin digər aparıcı kütləvi informasiya vasitələrinin də oxşar xoşagəlməz aqibətlə üzləşəcəyi ehtimalının yaranmasından narahatdır. Hadisənin, demək olar, eyni vaxtda baş verməsi belə bir təhlükənin mövcudluğundan xəbər verir”.

Bildirilib ki, baş vermiş hadisə kiber hücumlara qarşı mübarizəyə ciddi yanaşmağı aktuallaşdırmaqdadır: ”Hadisə, eyni zamanda, kiber təhlükəsizliyin təminatına yönələn məqsədyönlü, ardıcıl və təxirəsalınmaz tədbirlərin görülməsi, hazırda həyata keçirlən işlərin gücləndirilməsi zərurətini doğurmaqdadır. Yalnız adını çəkdiyimiz media orqanlarının deyil, ümumilikdə, milli resurslarımızın bazalarının qorunması, həm də ölkəmizin informasiya təhlükəsizliyinin mühüm komponentidir. Hadisə onu da göstərir ki, media orqanlarımızın öz bazalarını milli resurslarda yerləşdirmələrinə ehtiyac var. Ötən illərin də təcrübəsi bu baxımdan xarici ölkələrdəki xidmətlərdən istifadənin kifayət qədər effektiv olmadığını, maksimum təhlükəsizliyə zəmanət vermədiyini söyləməyə əsas verir. Mətbuat Şurası ölkəmizin aparıcı media qurumlarını bunu nəzərə almağa, mövcud istiqamətdə fərdi tədbirlər görməyə çağırır.

Mətbuat Şurası, həmçinin, aidiyyatı dövlət orqanlarını baş vermiş hadisəyə həssas yanaşmağa, onun araşdırılması, tez bir zamanda hüquqi qiymətin verilməsi, günahkarların tapılaraq məsuliyyətətə cəlb edilməsi ilə bağlı operativ tədbirlər həyata keçirməyə çağırır. Şura əmindir ki, müvafiq strukturlar digər media orqanlarımızın da eyni xoşagəlməz hallarla üzləşməmələri üçün fəaliyyətlərini daha da gücləndirəcəklər”.

Bəs yuxarıda da qeyd etdiyimiz kimi, ehtimallar hansılardır? Yaxud, bu hücumların arxasında dayanan haker qüvvələrinin müdaxiləsi hansı dairələrin sifarişləri ilə həyata keçirilə bilər? Təbii ki, ilk ağla gələn tərəf Ermənistan və bu ölkənin havadarlarıdır. İstər 44 günlük müharibədən əvvəl, istərsə də sonrakı dövrlərdə Ermənistanın xüsusi xidmət orqanlarına bağlı olan haker qrupları dəfələrlə düşmənçilik mövqeyindən çıxış etməklə aparıcı saytlara və internet resurslarına hücum cəhdləri ediblər. Hazırda da Ermənistanın siyasi cəhətdən yovuşmazlığı, eləcə də Azərbaycana qarşı revanşizm siyasəti yürütməsi cəhdləri mövcud olduğu üçün, mövcud insidentin məhz həmin ölkəyə bağlı hakerlər qrupu tərəfindən törədildiyi qənaətinə gələ bilərik. Üstəlik, Ermənistanın havadarları olan Fransa və s. kimi ölkələrdə də fəaliyyət göstərən kibercinayətkarların bu məsələdə əllərinin olması şübhəsi yüksəkdir.

Digər mümkün ehtimal isə İrandır. Belə ki, bu ölkədə fəaliyyət göstərən səfirliyimizin terror hücumuna məruz qalması, ümumiyyətlə Tehran rejiminin həm 30 illik işğal dövründə, həm də torpaqlarımız işğaldan azad edildikdən sonra Ermənistana havadarlığı barədə isə internet resurslarında minlərlə informasiyalar var.

Bu gün kibercinayətlərə əl atan, səfirliyimizə, orada çalışan insanlarımıza qarşı terror aktı düzənləyən terrorçular jurnalistlərimizi, media adamlarımızı da hədəfə ala bilərlər

Bu gün İranda yaşayan milyonlarla soydaşlarımızın Milli Hökumət qurmaq ideyalarını, eləcə də, bu ölkədəki azsaylı xalqların azadlıq mücadilələrini hüquqlarını hürriyyət və istiqlallarını, habelə layiq olduqları istiqballarını müdafiə edən aparıcı mtbuat qurumları sırasında ”SƏS” media qrupunun aparıcı mövqeyə sahib olması da çox yəqin ki, Tehran rejimini hiddətləndirən amillərdən biridir. Hətta istisna etmək olmaz ki, bu gün kibercinayətlərə əl atan, səfirliyimizə, orada çalışlan insanlarımıza qarşı terror aktı düzənləyən terrorçular jurnalistlərimizi, media adamlarımızı da hədəfə ala bilərlər. Yəni hazırda hücuma məruz qaldığımız kiber-terror faktı da deyilənləri təsdiq edir.

O cümlədən, unutmamalıyıq ki, İran hakerlərinin daha əvvəllər də Azərbaycanın internet məkanına kiberhücumları haqqında da məlumatlar kifayət qədərdir. Lakin inandırıcı görünən ehtimallardan biri də budur ki, TV-mizin YouTube kanalının silinməsi arxasında məhz bu kimi qüvvələr dayanıb.

Rövşən RƏSULOV

“SƏS TV-yə dəymiş ziyana görə məhkəməyə müraciət olunacaq”

Xəbər verdiyimiz kimi, bir neçə gündür ki, SƏS İnternet Televiziyasının ”Youtube”, eləcə də SƏS TV xəbər kanalı haker hücumuna məruz qalıb. Ölkəmizin informasiya təhlükəsizliyinə yönəlmiş bu hücum bir daha sübut edir ki, milli informasiya məkanımız daim ictimai fikri çaşdırmaq istəyən qüvvələrin nəinki dezinformasiya və yanlış xəbərlər yayılması, habelə infrastruktura kənar müdaxilə etməklə informasiyanın mənbədən silinməsi və dəyişdirilməsi üsulundan istifadə etməklə hədəfinə çevrilir.

SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev SİA-ya açıqlamasında bildirib ki, hər iki kanalın müəlliflik hüququ var idi və bu hadisələrə görə, ”Baku CMS” və ”Youtube” şirkəti cavabdehlik daşıyır. Hər iki şirkət barəsində kanala dəymiş ziyana görə, təzminat davası açılacaq və məhkəməyə müraciət olunacaq. Bəhruz Quliyev əlavə edib ki, faktiki olaraq 11-12 il ərzində fəaliyyət göstərən SƏS İnternet Televiziyasının ”Youtube” və SƏS TV xəbər kanalında yaranmış vəziyyətlə bağlı əlaqədar hüquq-mühafizə orqanlarına da müraciət olunub: ”Bu, kanalın çökdürülməsinə hesablanmış sui-qəsddir”.

Xatırladaq ki, Azərbaycan Respublikasında ən baxımlı kanallardan bir neçəsi məhz bu cür hallarla üzləşib. Araşdırmalara görə hakerlərin İran və Ermənistan tərəfindən təşkil olunması ehtimal edilir.

Azərbaycan BMT-də:
sıravi üzvdən ən nüfuzlu dövlətlər sırasına...

Azərbaycan həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bu baxımdan, ölkəmizin Birləşmiş Millətlər Təşkilatında yüksək fəallığı da diqqəti cəlb edir. Azərbaycan düz 31 il əvvəl - 2 mart 1992-ci ildə üzv seçildiyi bu təşkilatda müvəffəqiyyətlə təmsil olunmaqla tarixi nailiyyətlərə imza atır. Bir zamanlar BMT sıralarında sıravi üzv olan Azərbaycan indi qurumun ən prestijli dövlətlərindən birinə çevrilib.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycan BMT-nin tribunasından fəal istifadə etməyə başlayıb. Heydər Əliyev bir neçə dəfə BMT Baş Məclisinin iclaslarında iştirak edib, ölkəmizlə bağlı, xüsusilə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar həqiqətləri dünya ictimaiyyətinə çatdırıb.

Prezident İlham Əliyev də Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri əsasında ərazi bütövlüyünün dəstəklənməsi, işğal olunmuş bütün ərazilərdən Ermənistan qüvvələrinin tam və qeydşərtsiz çıxarılmasının təmin olunması istiqamətində BMT çərçivəsində fəal diplomatik iş aparılmasını xüsusi diqqət mərkəzində saxlayıb.

Dövlətçilik tariximizin ən mühüm hadisələrindən biri isə, şübhəsiz ki, 2011-ci il oktyabrın 24-də Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsidir. Bu dövrdə Azərbaycanın təşəbbüsü ilə BMT TŞ-də dünyanı narahat edən bir sıra mühüm məsələlər gündəliyə daxil edilib və səmərəli müzakirələr aparılıb, müvafiq qərarlar verilib, sənədlər qəbul edilib. Azərbaycan BMT TŞ-dəki fəaliyyəti ilə humanizm dəyərlərinə, dünyanın müxtəlif regionlarındakı münaqişələrin aradan qaldırılması üçün göstərilən səylərə verdiyi önəmi nümayiş etdirib. Bütövlükdə, ölkəmizin bu quruma sədrliyi müddətində ümumilikdə qurumun 59 açıq və qapalı iclası keçirilib, 7 qətnamə, Şura sədrinin 3 bəyanatı və 13 mətbuat bəyanatı qəbul edilib.

Azərbaycan Prezidenti İlham Əliyev milli maraqlara, müasir çağırışlara uyğun fəaliyyəti ilə mühüm reallıqlar formalaşdırıb, bir çox ilklərə və yeniliklərə imza atıb. Məlumdur ki, Azərbaycanın 44 günlük müharibədə möhtəşəm qələbə qazanaraq torpaqlarını işğaldan azad etməsi təkcə ərazi bütövlüyünün və tarixi ədalətin bərpası deyil. Bu, eyni zamanda, dünyada yeni nümunənin - mühüm presedentin yaradılmasıdır. Söhbət Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalmış 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasına nail olmaqdan gedir. Bu, eyni zamanda, BMT-nin korlanmış imicinin bərpası üçün yeni nümunə yaradılması və ya şərait formalaşdırılması baxımından önəmlidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü təmin etdi və bu, yəqin ki, BMT-nin təsis edildiyi vaxtdan bu günə qədər dünyada ilk belə haldır.

İndi yeni reallıqlar - postmüharibə gerçəklikləri mövcuddur. Azərbaycan regionda sülhə, sabitliyə - təhlükəsizliyə, əməkdaşlığa və inteqrasiyaya xidmət edən mühüm təklif və təşəbbüslərlə çıxış edir. Yeni reallıqlar fonunda regionda kommunikasiyalar bərpa olunmalı, sərhədlər dəqiqləşdirilməli, sülh müqaviləsi imzalanmalıdır. Amma eyni zamanda, Ermənistan 30 ilə yaxın davam edən işğal müddətində, həmçinin 44 günlük İkinci Qarabağ müharibəsi zamanı törətdiyi bütün cinayətlərə görə beynəlxalq hüquq qarşısında cavab verməli, maddi-mənəvi ziyanın bədəlini ödəməlidir. Bununla bağlı beynəlxalq təcrübə - presedent mövcuddur.

İraq 1990-1991-ci illərdə Küveytin işğalına görə 50 milyard dollardan çox təzminatın ödənişini başa çatdırıb. Proses Təzminat Komissiyasının işi nəticəsində həyata keçirilib. Komissiya isə 1991-ci ilin yazında BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə təsis olunub, hərbi müdaxilə nəticəsində vətəndaşlara, kompaniyalara, hökumətlərə və beynəlxalq təşkilatlara dəyən birbaşa zərərin ödənilməsi istiqamətində fəaliyyət göstərib. BMT Təhlükəsizlik Şurasının müvafiq qərarları əsasında təzminat ödənişi həyata keçirilib.

Eyni təcrübə Ermənistana qarşı nə üçün tətbiq edilməsin? Axı beynəlxalq ictimaiyyət, o cümlədən BMT-nin müvafiq strukturları Ermənistanın Azərbaycana məxsus sərvətləri talamasından, iqtisadi resursları qanunsuz mənimsəməsi və istismar etməsindən, kəndləri, şəhərləri, qəsəbələri dağıtmasından, maddi-mədəni irsə qarşı soyqırımı siyasəti həyata keçirməsindən xəbərdardır. BMT-nin aidiyyəti təsisatları faktları əsas götürməklə, müvafiq araşdırma aparmaqla Ermənistana qarşı qətnamələr qəbul etməli, bu ölkənin cəzalandırılması və Azərbaycana təzminat ödəməsi ilə əlaqədar müvafiq mexanizm yaratmalıdır. Dünya təcrübəsi ilə yanaşı, beynəlxalq hüquq normalarının tələbləri də ortadadır. Elə BMT tərəfindən 2001-ci ildə qəbul edilmiş "Dövlətlərin beynəlxalq-hüquqazidd əməllərinə görə məsuliyyəti" adlı qətnamənin 31-ci maddəsində təsbit edilib ki, beynəlxalq səviyyədə qanunsuz əməl törətmiş dövlət dəymiş maddi və ya mənəvi zərəri tam kompensasiya etməlidir.

Bir vaxtlar Məhəmməd Hadi deyirdi ki, "yox millətimin imzası imzalar içində". İndi BMT-nin 30 il ərzində kağız üzərində qalmış qətnamələrinin icrasına öz hərbi-siyasi gücü ilə nail olan Azərbaycan adlı qalib dövlətin üçrəngli bayrağı ən yüksək zirvələrdə dalğalanır. Və bütün dünya bilir ki, Azərbaycanın Liderinin sözü imzası qədər dəyərli və keçərlidir!

YAP Təftiş Komissiyasının iclası keçirilib

Martın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Təftiş Komissiyasının növbəti iclası keçirilib. YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın gündəliyi və müzakirəyə çıxarılan məsələlər barədə məlumat verib.

İclasda 2023-cü ilin birinci yarımilliyi üzrə partiyanın yerli təşkilat aparatlarında təftişin aparılmasına dair Təftiş Cədvəli və digər cari məsələlər müzakirə olunub.

YAP Təftiş Komissiyasının üzvləri - Nizami Səfərov, Həsən Həsənov, Musa Musayev, Cavanşir Paşazadə, Aydın Hüseynov, Naqif Həmzəyev, Məlahət İbrahimqızı və Elman Nəsirov gündəlikdə duran məsələlərə münasibət bildiriblər.

Müzakirələrdən sonra gündəliyə çıxarılan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

YAP Zəngilan rayon təşkilatı "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirib

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin öyrənilməsi və yeni nəslə aşılanması məqsədilə ardıcıl tədbirlər keçirilir.

Növbəti tədbir martın 2-də YAP Zəngilan rayon təşkilatı tərəfindən keçirilib.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə ediblər. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının və qardaş Türkiyədə baş vermiş zəlzələ nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Zəngilan rayon təşkilatının sədri Natiq Quluzadə Ulu Öndərin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalqın məhəbbətini qazanan öndər kimi əbədilik qazanmasından danışıb. Bildirib ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə yorulmaz fəaliyyət göstərərək qəlblərdə daim sevgi, xatirələrdə əbədiyaşarlıq qazanıb. Ümummilli Lider qısa zaman kəsiyində ölkədə sabitliyi təmin etdi, müstəqilliyimiz və suverenliyimizə qarşı yönəlmiş təhlükələri aradan qaldırdı. N.Quluzadə vurğulayıb ki, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Liderin siyasi kursunu layiqincə davam etdirir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, beynəlxalq aləmdə Azərbaycanın rolunu və nüfuzunu artırır.

Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənov bildirib ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ulu öndər Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti ilə bağlıdır. Ulu Öndər Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından uğurla çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Həyatının mənasını xalqına xidmət etməkdə görən ümummilli lider Heydər Əliyevin siyasətinin nəticəsidir ki, bu gün müstəqil və demokratik Azərbaycan hərtərəfli inkişaf edir.

Milli Məclisin deputatı İmamverdi İsmayılov qeyd edib ki, böyük şəxsiyyətlər yaşayıb yaratdıqları, fəaliyyət göstərdikləri zamanlarda siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə yazırlar. Azərbaycan xalqı da hər zaman müasir dövlətimizin memarı və qurucusu, xalqının və ölkəsinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır. Ümummilli Lider Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir.

YAP Veteranlar Şurasının üzvü Adilə Abasova çıxış edərək ümummilli lider Heydər Əliyevin mənalı ömür yolundan, həyat və fəaliyyətinin mühüm məqamlarından danışıb. O, Heydər Əliyev və azərbaycançılıq məfkurəsinin müstəqil Azərbaycan dövlətinin ana xəttini təşkil etdiyini bildirib.

Tədbirdə çıxış edən Sumqayıt Olimpiya İdman Kompleksinin direktoru, qrossmeystr Zeynəb Məmmədyarova vurğulayıb ki, bugünkü reallıqlar Heydər Əliyevin ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Sonda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar təqdim edilib.

ANALİTİK + ÖZƏL

İlham Əliyevdən önəmli və ünvanlı mesajlar!

Prezident: "Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir"

Dünyada gedən və bir-birini tez-tez əvəzləyən proseslər bütövlükdə qlobal situasiyalara təsirsiz ötüşmür. İkili standartlardan başlayaraq digər müxtəlif ədalətsizliklərə söykənən olaylar həm də ayrı-ayrı ölkələrin kolonial idarəçilik mexanizmlərindən çıxmadıqları faktını da ortaya qoymaqdadır. Təbii ki, müasir dünyamızda bu kimi siyasət yürüdən ölkələrin sonradan digər ölkələrə qarşı hər hansı "demokratiya dərsi" keçmək cəhdləri ciddi qəbul edilməməlidir. Və daha bir diqqətçəkici maraqlı məqamlardan biri də budur: hazırda dünyada elə aparıcı ölkələr də var ki, bu kimi ölkələrin neokolonial idarəçilik mexanizmini saxlayan digər ölkələrə qarşı hər hansı iradları, ittihamları səsləndirilmir. Bu isə həm çoxsaylı suallar yaradır, həm də ikili standartlar reallığını təsbit edən faktlar olaraq qiymətləndirilir.

Məsələn, bu gün Fransa kimi Avropanın aparıcı dövlətləri sırasında yer alan ölkə əsrlərdir özünün neokolonial siyasətini davam etdirir və Qərb, xüsusilə BMT, ATƏT, Avropa Parlamenti və s. kimi nüfuzlu beynəlxalq qurumlar sanki həmin siyasəti görməməzlikdən gəlirlər. Halbuki Fransa paralel olaraq BMT-nin Təhlükəsizlik Şurasında yer alan dövlətlər sırasındadır.

Hazırda isə məhz bu və digər qlobal məsələlərin, mövzuların mərkəzinə çevrilən Bakıda növbəti mühüm beynəlxalq tədbir keçirilməkdədir.

Azərbaycan Prezidenti: "Təəssüf ki, bu gün biz neokolonializm meyilinin artdığını müşahidə edirik"

Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə irəli sürülən əhəmiyyətli mövzular, aparılan diskussiyalar da həmin gerçəkliyi ehtiva etməkdədir. Xüsusilə, Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında önəmli məqamlar kifayət qədər mühümlük təşkil edir. Dövlətimizin başçısı çıxışı əsnasında vurğulayıb. SİTAT: "Təəssüf ki, bu gün biz neokolonializm meyilinin artdığını müşahidə edirik".

Əbəs deyil ki, dövlətimizin başçısı bu kimi faktları dünyanın rüsvayçı səhifəsi adlandırıb və vurğulayıb. SİTAT: "Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir".

Dövlət başçısı: "Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır"

İlham Əliyev bu xüsusda xatırladıb ki, Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləyib. "Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq", deyə Azərbaycan Prezidenti açıq və qəti şəkildə bəyan edib.

Dövlət başçısının Fransanın Avropadan kənarda idarə etdiyi müstəmləkəçilik, həmçinin imperialist siyasətini "iyrənc qalırlar" olaraq adlandırıb, eləcə də fransız kolonialistlərinin uzun illər digər xalqlara qarşı soyqırımı tətbiq etdiyini bütün bunlara görə isə üzr istəməli olduğunu xüsusilə vurğulayıb. SİTAT: "Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq".

Ölkə başçısı: "BMT Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir"

Söz yox ki, bu kimi məsələlərdə yuxarıda da qeyd edildiyi kimi, digər aparıcı ölkələr də əməli fəaliyyətə keçməlidirlər. Daha dəqiq desək, hazırda BMT-nin Təhlükəsizlik Şurasında mövcud olan dövlətlər elə hesab etməməlidirlər ki, dünyanın idarəçiliyi, yaxud hər hansı bir ölkədə baş verən olaylarla bağlı onların yekdil qərarları həlledici olmalıdır. Belə ki, bugünkü tərkib artıq mövcud gerçəkliklərlə uzlaşmır. Bu baxımdan, BMT TŞ-nın tərkibi də genişləndirilməli, ədalətli bölgülərə yol açılmalıdır. Prezident İlham Əliyev bu haqda da danışarkən deyib. SİTAT: "Dünyada uzun illərdir müzakirə olunan digər mühüm məsələ BMT sistemində aparılan islahatlardır. BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmir. BMT Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir ki, orada daha çox ölkə təmsil olunsun və coğrafi baxımdan daha ədalətli olsun".

Prezident İlham Əliyev: "İndi dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir"

Mövcud dövrümüzdəki siyasi kataklizmlər fonunda dəyişən reallıqlar da artıq növbəti tələbləri, çağırışları diktə etməkdədir. Əbəs deyil ki, bu kataklizmlər paralel olaraq qitələrarası ziddiyyətlərdən də qaynaqlanmaqdadır. İlham Əliyev həmin reallığı önə sürməklə, daha dəqiq desək, Qoşulmama Hərəkatının aktiv fəaliyyəti ilə mövcud problemlərin aradan qaldırılması zəruriliyinə də toxunub. Belə ki, yeni dünyanın formalaşması prosesi artıq bu tələbləri önə sürməkdədir. SİTAT: "Yeni dünya düzəni yenidən formalaşmaqdadır. İndi dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir".

Artıq əminliklə belə nəticəyə gəlmək olar ki, Azərbaycan Prezidenti toxunduğu digər mühüm mövzularla yanaşı, qeyd edilən bu kimi məqamları da önə sürməklə, habelə dünya ictimaiyyətinin diqqətinə çatdırmaqla beynəlxalq aləmə əhəmiyyətli mesajlarını çatdırıb və bu mesajların, eyni zamanda, ünvanlı olması xüsusilə diqqətçəkən və özündə liderlik qətiyyətini əks etdirən danılmaz gerçəklik faktorudur.

Rövşən RƏSULOV

TÜRKİYƏ: zəlzələlər və zərərlər

2023-cü ilin fevral ayı Türkiyə üçün elə bir gözlənilməz hadisə ilə tarixin səhifəsinə həkk olundu ki, yüz illər sonra da XXI əsrin faciəsi kimi anılacaq, haqqında dəhşətlə, ürək yanğısı və göz yaşı ilə söhbət açılacaq. Kahramanmaraş, Hatay, Adıyaman, Qaziantep, Osmaniye, Adana, Şanlıurfa, Malatya, Diyarbəkir, Kilis, Elazığ şəhərlərində fevral ayının 6-da gecə saatlarında bir-birinin ardınca 7.7 və 7.6 bal gücündə baş verən iki böyük zəlzələnin qurbanlarının sayı artıq 45 min nəfəri ötmüşdür. Minlərlə insan hazırda xəstəxanalarda müalicə alır, minlərlə insan evini itirib. Minlərlə insandan isə, hələlik, xəbər yoxdur. Zəlzələlər sonsuz zərərlərlə müşahidə olunur...

Zəlzələnin zərəri 34 milyard dolları keçəcək

Dünya Bankının açıqladığı fövqəladə zərərin qiymətləndirilməsi hesabatına əsasən, fevralın 6-da baş verən iki böyük zəlzələ Türkiyədə təxminən 34,2 milyard dollar (646 milyard türk lirəsi) birbaşa fiziki ziyana səbəb olub. Hesabata görə, bu rəqəm 2021-ci il üçün ölkənin ümumi daxili məhsulunun (ÜDM) 4%-ni təşkil edir.

Dünya Bankının Fəlakətlərin Qiymətləndirilməsi Hesabatında həmçinin qeyd olunur ki, xilasetmə və yenidənqurma xərcləri daha böyük, potensial olaraq iki dəfə yüksək olacaq və iqtisadi pozulmalarla bağlı ÜDM itkiləri zəlzələlərin xərclərini artıracaq. Hesabata görə, davam edən afterşoklar, ehtimal ki, zamanla bu zərərin hesablanmasını artıracaq.

Təxminən 1 milyon 250 min insan müvəqqəti evsiz qalıb

Zəlzələdən zərər çəkmiş 11 vilayətin Türkiyədə ən yüksək yoxsulluq göstəricilərinə malik olduğunu qeyd edən Dünya Bankı bu bölgələrin də Türkiyədəki ümumi suriyalı qaçqın əhalisinin təxminən yarısına-1,7 milyondan çoxuna ev sahibliyi etdiyini açıqlayıb. Türkiyədə birbaşa fiziki zərərə diqqət yetirən Qlobal Fəlakət Sonrası Fövqəladə Zərər Təxmini Hesabatında (GRADE) yazıb ki, ən azı 1,2 milyon insan orta və ya ciddi ziyan və ya binaların tamamilə dağılması səbəbindən müvəqqəti evsiz qalıb.

Hesabatda həmçinin vurğulanıb ki, təxmin edilən zərərlərin yüzdə 81-i Türkiyə əhalisinin təxminən yüzdə 7,4-nün, yəni təxminən 6 milyon 450 min insanın yaşadığı Hatay, Kahramanmaraş, Qaziantep, Malatya və Adıyaman vilayətlərində baş verib.

Mənzillərə dəymiş ziyan ümumi zərərin 53 faizini təşkil edir

Hesabata görə, yaşayış yeri kimi istifadə edilən mənzillərə dəymiş birbaşa dəymiş ziyan 18 milyard dollar olmaqla, ümumi zərərin 53 faizini təşkil edib. Səhiyyə müəssisələri, məktəblər, hökumət binaları və yaşayış yeri kimi istifadə edilməyən özəl sektor binaları kimi strukturlara 9,7 milyard dollar dəyərində dəymiş ziyan ümumi zərərin 28 faizini təşkil edib. Yol, elektrik və su təchizatı kimi infrastruktura bağlı 6,4 milyard zərər ümumi zərərin yüzdə 19-u olaraq təyin olunub.

Ən az 15 xəstəxanada qismən və ya ağır ziyan meydana gəlib və zərərin qiymətləndirilməsi işləri davam edir. Dağılma riski olan xəstəxanalar və ya xəstəxana əlavələri təcili xidmət qrupları tərəfindən boşaldılıb, xəstələr ölkə daxilindəki müəssisələrə köçürülüb və baxımın davamlılığını təmin etmək üçün sahə xəstəxanaları yaradılıb. Dünya Bankı bəyan edib ki, hesabatdakı zərər təxminlərinə Türkiyə iqtisadiyyatı üçün daha geniş iqtisadi təsirlər və itkilər daxil deyil. Hesabata həmçinin birbaşa zərərləri üstələyə bilən və daha dərin qiymətləndirmə tələb edən xilasetmə və yenidənqurma xərcləri daxil edilməyib.

Zəlzələdə vəfat edənlərin sayı 72 mini keçə bilər

Türkiyə Müəssisə və İş Konfederasiyası (TÜRKONFED) Türkiyənin cənub-şərqində baş verən zəlzələnin 72000-dən çox insan itkisinə səbəb ola biləcəyini və Ankaraya 84 milyard dollardan çox dağıntı gətirəcəyini proqnozlaşdırıb. TÜRKONFED 2021-ci il dollar məlumatlarından istifadə edərək 1999-cu il Mərmərə və 2023-cü il Kahramanmaraş zəlzələlərinin məlumatlarını müqayisə edərək can itkisi və maddi ziyanla bağlı proqnozlar hazırlayıb.

”2023 Kahramanmaraş Zəlzələ Fəlakət Vəziyyəti Hesabatı” başlıqlı hesabatda, Mərmərə Zəlzələ məlumatlarından istifadə metodologiyasına əsasən Kahramanmaraş zəlzələsini 2021-ci il dollar məlumatları ilə sınaqdan keçirsək, 72,663 can itkisi və 84,1 milyard dollarlıq maddi ziyan hesablanır. Hazırkı mərhələdə əlimizdə olan məlumatlara görə, 193 399 nəfər yaralanıb”, - deyə məlumatda bildirilir.

15-i dağıntılar altından xilas edilən 2000-ə yaxın uşağa tibbi yardım göstərdik

Ege Universiteti Tibb Fakültəsi Uşaq Sağlamlığı və Xəstəlikləri Fundamental elm sahəsinin başçısı və müəllimi professor Ulaş Saz zəlzələdən sonra könüllü olaraq çalışdığı Hatayda 15-i dağıntılar altından xilas edilən 2000-ə yaxın uşağın müalicəsini 16 nəfərlik qrupla öz üzərinə götürdüklərini bildirib. Professor deyib: Ege Universitetinin həkimləri olaraq dərhal 6 qrup yaratdıq. Bu qruplar zəlzələ bölgələrindəki bütün vilayətlərdə işləməli idi. Ancaq növbəmiz gəlmədi, bizi ora istiqamətləndirmədilər. Sonra illik məzuniyyət götürüb rayona getdik. AFAD könüllüləri kimi qeydiyyatdan keçdik. Mustafa Kamal Universitetində pediatriya təcili xidmətini idarə etdik. Bundan başqa 16 çarpayılıq ümumi pediatriya xidməti olaraq xəstəxana qurduq, dağıntılar altından çıxarılan uşaqlara xidməti göstərdik. 16 həkim və 16 tibb bacısından ibarət heyətlə 6 gün orada çalışdıq. 2000-ə yaxın uşağa tibbi yardım göstərdik ki, onlardan 15-i dağıntılar altından xilas edilmişdi.

Zəlzələ bölgəsində çalışan professordan ”yoluxucu xəstəlik” xəbərdarlığı

Bölgədə ən çox tənəffüs yolları və bağırsaq infeksiyalarının uşaqlarda müşahidə edildiyini bildirən Ulaş Saz, əgər profilaktik tədbirlər görülməsə, heç vaxt görmədiyimiz bağırsaq infeksiyalarından tutmuş vəba və digər xəstəliklərə qədər geniş perspektivdə görə bilərik, deyib: yoluxucu xəstəliklər və hətta maye itkisi nəticəsində ölümlər ola bilər.

Maye itkisi və şokdan ölüm ola bilər

Zəlzələ bölgəsində uşaqların narahatlığına toxunan professor Ulaş Saz bildirib ki, bağırsaq və tənəffüs yolları infeksiyaları ən çox yayılıb. Daha sonra sətəlcəm və yuxarı tənəffüs yolları infeksiyaları da müşahidə etdik. Gigiyena qaydalarının pozulması və su qıtlığı səbəbindən problemlər yaranıb. Əgər gigiyena qaydalarına əməl olunarsa, su, təmizlik, tualet kimi profilaktik tədbirlər həyata keçirilərsə, bunların qarşısını almaq olar.

Fəlakət sonrası stress bu xəstəliyi sürətləndirir

Xüsusilə zəlzələnin ilk ayından sonra mədə xorası tezliyinin 100 faiz arta biləcəyini ifadə edən qastroenterologiya mütəxəssisi doktor İsmail Acar vurğulamışdır ki, qanaxma halları da şiddətlidir. Bu səbəbdən qan banklarında kifayət qədər qan ehtiyatına ehtiyac var. Təbii fəlakətdən sonra insanlar fiziki, psixososial və iqtisadi stress keçirirlər. Bu səbəblə mədə narahatlığının arta biləcəyi xəbərdarlığını edən doktor İsmail Acar deyir: ”Xora tezliyi zəlzələnin 2-ci həftəsindən başlayaraq artır və zəlzələdən 1 ay sonra normal tezliyə görə 100 faizdən çox artım göstərir. Zəlzələdən cəmi 4 ay sonra normal tezliyinə qayıdır”.

Qastroenterologiya mütəxəssisi daha əvvəlki araşdırmalara görə mədə-bağırsaq xəstəliklərinin fəlakətlərdən sonra çox yayıldığını ifadə etib: ”Zəlzələdən sonrakı ilk 3 gündə ortaya çıxan, sonrakı ilk 2 həftədə, xüsusilə ishal, qarın ağrısı, susuzluq, şişkinlik, ürək yanması və bağırsaq pozğunluqları kimi hallar müşahidə edilən xəstəlikdən qurbanların təxminən 50% -i əziyyət çəkir. Daha sonra davam edən psixososial stress səbəbiylə ağızdan və ya anusdan ani qanaxma ilə əlamətlər yaradan və müalicə edilmədikdə ölümə səbəb olan mədə xorası hallarında artım müşahidə olunur.

Müxtəlif stress vəziyyətlərinin həmişə xəstəlikdə relapslara səbəb olacağı məlumatını paylaşan Acar: ”Zəlzələlərdə xoralı kolit, Crohn kimi iltihablı bağırsaq xəstəlikləri diaqnozu qoyulan insanlardan danışmaq lazımdır. Bu xəstəliklər qanaxma və ishal ilə irəliləyən, ömür boyu davam edən və dövri olaraq ağırlaşma epizodları olan xəstəliklərdir. Stress bu xəstələrdə relapslara səbəb ola bilər. Araşdırmada evi sökülənlərin yüzdə 15-i, müvəqqəti sığınacaqlarda yaşayanların yüzdə 6-sı, ailə üzvü və ya dostu vəfat edənlərin yüzdə 20-si, gündəlik qidalanma vərdişlərini dəyişənlərin, iş itkisi yaşayanların və ya ailənin maddi vəziyyəti narahatlığı keçirənlərin yüzdə 30-u xoralı kolit hücumlarına məruz qalıblar. Bu mənada dağıntıların daha çox olduğu bölgələrdə bu xəstəliklər daha çox görülür.

Doktor Acar son olaraq xəstəliyi olanların dərmanlarını vaxtında qəbul etmələrinin və qidalanmalarına fikir vermələrinin vacib olduğunu bildirib: ”Əl gigiyenasına və yaxın təmaslara diqqət yetirməlidirlər. Duzlu, turşulu və mədəyə zərər verən bütün qidalardan uzaq durmalıyıq. Siqaret də xoraların sürətlənməsinə səbəb olan vasitədir, ondan istifadə etməməliyik”.

Mətanət Məmmədova

İran niyə təklənib?

Molla rejimi günahsızdırmı?

İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian BMT-də çıxışı zamanı gözlənilən, amma hələ də İran hakimiyyətinin saymaz yanaşdığı hadisə baş verib. Başqa sözlə desək, insan haqlarını kobud şəkildə pozan, milli azlıqlara şovonist siyasətini bir an belə dayandırmayan, vətəndaşlarını daim təhdid altında saxlayan, qadın hüquqlarının hər addım tapdalayan, söz və mətbuat azadlığına əngəllər törədən, qonşu dövlətlərə, xüsusən Yaxın Şərq ölkələrinə terrorçu ixrac edən İran özünü nəinki regionda, o cümlədən dünyada təklənmiş vəziyyətə saldığına görə bütün beynəlxalq tədbirlərdən qovulub, bu ölkənin təmsil olunduğu iclaslar ya təxirə salınır, ya da ləğv olunur. BMT-nin Cenevrədə keçirilən tədbirində də İran adlı şər yuvasının, molla rejiminin təmsilçisi, bu qondarma ölkənin xin başçısı Abdullahian çıxışına başlayar-başlamaz şok görüntülərə şahidlik edib. Müxtəlif ölkələrin diplomatları zalı nümayişkaranə şəkildə tərk ediblər.

Görəsən, buna səbəb nə ola bilər? Əcəba, İran kimə nə edib ki, bu "faciə" ilə üzləşir, təklənir, hər yerdən qovulur? Nə olsun ki, qadınlar baş örtülərini molla rejiminin standartlarına uyğun olmayan şəkildə geyindiklərinə görə bir-iki şapalaq yeyirlər? Buna görə "islam dininin mühafizi" sayılan



İranı bütün masalardan qovmaqmı gərəkdir? Bəli, mollalar hələ də nə etdiklərinin fərqində deyillər. Onların təbirincə, vətəndaş ayətullahların təbəəsidirsə yetər, onlar döyülə də, söyülə də bilər. Hələ başqa xalqlara, milli azlıqlara olan münasibətdən danışmırıq.

Tarix nə deyir?

Türk Qacarlar xanədanını devirərək yerinə fars Pəhləviləri gətirməklə qondarma İran dövləti yaradan farslar bu illər ərzində türkçülüyün bütün izlərini yox etməklə özlərini qədimiləşdirməyə çalışırlar. Tarixə nəzər salaq, Qacarlar dövləti - XVIII-XX əsrlərdə indiki İran və Azərbaycan ərazilərində mövcud olmuş, türk mənşəli Qacarlar sülaləsi tərəfindən qurulmuş dövlətdir. 21 yanvar 1898-ci ildə Təbrizdə anadan olan Soltan Əhməd 11 yaşında şah taxtına çıxır. Ancaq Birinci dünya müharibəsi illərində İranın Rus və İngilis qoşunları tərəfindən işğalı Sultan Əhməd şahın nüfuzunun itməsilə nəticələnir. 1921-ci ilin fevral ayında dövlət çevrilişinə başçılıq edən Rza xan Pəhləvi İranda hakimiyyətə gətirilir. 1923-cü ildə Sultan Əhməd şah İranı həmişəlik tərk edir və 1925-ci ildə Qacarların hökmdarlığına son qoyulur. 1925-ci ildən 1979-cu ilə qədər İrana Pəhləvi sülaləsinin şahları hökmdarlıq edirlər. Qacarlar dövlətindən əvvəl indiki İran, Azərbaycan, İraq, Əfqanıstan, Pakistan və hətta Hindistanın bir qismi Əfşarlar imperiyasının tərkibində olub. 60 illik ömrü olan Əfşarlar Səfəvilər dövləti dağıldıqdan sonra meydana gəliblər.

Cəmi 54 illik ömrü olan Pəhləvi hakimiyyəti indiki İran, keçmişdəki Əfşarlar, Qacarlar sülaləsindən sonra buralara haqqı olmadan sahiblənib lər. İngilis və rusların əli ilə qorxaq və hiyləgər, xain və xəbis farslar öz dövlətlərini qurmaqla bütöv Türk dünyasının içində qanayan yaraya dönüblər. Onların mövcudluğu dönəmində İrandakı bütün türk tayfaları diskrinimasiyaya uğrayaraq soy-kökündən uzaq düşüblər. Onlara bir-biri ilə əlaqələr yaratmaq, birlik olmaq kimi haqlı davranışlar Tehran hakimiyyəti tərəfindən qadağan edilib, öz dillərində danışmaq, yazışmaq, məktəb açmaq yasaqlanıb. Azlıqda qalan farslar əvvəlcə Pəhləvilər dövründə və 44 illik molla rejimində daim çoxluq təşkil edən Azərbaycan türklərinə qarşı ayrı-çeçkilik edib, onların bütün haqlarını, hüquqlarını tapdalayıblar. Zaman-zaman türklərin hakimiyyəti yaransa da, farslar ingilis və rusların dəstəyi ilə milli hökumətləri qan gölündə boğa biliblər.

Müsəlmanın düşməni, ermənin dostu

İran 10 ölkə ilə quru sərhədinə malikdir. Onlardan 9-u müsəlman ölkəsidir, yalnız Araz çayının şimalındakı Azərbaycan torpaqları hesabına yenə rus və ingilis "barmağı" ilə yaradılmış qondarma Ermənistan xristian dövlətidir. İndi maraqlı sual ortaya çıxır, İran hansı qonşusu ilə dost, hansılarla düşməndir? İranın şərqində 3 müsəlman ölkə - Türkmənistan, Əfqanıstan və Pakistan var. Türkmənistanla münasibətlər mütəhərrikdir, Əfqanıstan və Pakistanla məzhəb ayrılığı səbəbindən düşmən münasibət hökm sürür. Körfəz ölkələri ilə, yəni ərəb dünyası ilə münasibətlər hər an partlayan barıt çəlləyini xatırladır. İraqla 8 illik müharibənin izləri hələ də silinməyib. Bu müharibədə təkcə canlı itki sayı 1 milyon nəfərdir. Ölüm kağızı hər evin qapısını döyüb. Küveyt, Qətər, Bəhreyn, Birləşmiş Ərəb Əmirliyi, Səudiyyə Ərəbistanı və Yəmən ilə münasibətlər çox gərgindir, dost olmağa heç bir "əlyeri" qoyulmayıb. Türkiyə ilə münasibətlər "soyuq müharibə"ni xatırladır. Azərbaycan barədə bir az sonra. Qaldı, təkcə xristian Ermənistan ki, onunla da dost yox, qardaşdır. Kitablardan oxumuşuq, müsəlman müsəlmanın qardaşıdır. Belə çıxır ki, ya 9 ölkə müsəlman deyil, ya da İran islam dininə sitayiş edənlərin düşmənidir. Belə olmasaydı o dostluqdan bizə də pay düşərdi.

Azərbaycan: düşmənmi, dostmu?..

İranın qonşuları arasında Azərbaycan da özünəməxsus yer tutur. Gah Azərbaycanı "dost-qardaş" adandırır, gah "sionistlərin dostu" damğasını vurub bizimlə savaşa başlayır, gah dişini qıcayır, gah da quyruğunun basıldığını bəhanə edib üstümüzə qoşun çəkir. Təbii ki, bütün bunların bizim üçün əhəmiyyətsiz bir yanaşma olduğunu bilirik. Amma məsələyə laqeyd yanaşmaq da olmaz. 44 günlük savaşa qədər İran rejiminin etdiklərini Vətən müharibəsində də gördük. Azərbaycan dövlətinin yaranmasını özünün ən böyük və qəbuledilməz problemi kimi görən İran-fars-molla rejimi daim bizim bir millət, bir dövlət olaraq ayaq üstə sərbəst durmağımıza qarşı olub. Ermənistanı dəstəkləməsinin ardında ermənilərə sevginin olmadığını da bilirik. Azərbaycan dövlət kimi mövcud olmasın deyə fars-molla rejimi bütün imkanlarını səfərbər edib, ermənilərə müharibənin gedişində kəşfiyyat məlumatlarından tutmuş, bütün hərbi-texniki yardımları göstərib. II Qarabağ savaşında Azərbaycan ordusuna qarşı Xudafərin körpüsü yaxınlığında maneələrin yaradılması, silahlı qüvvələrimizin yolunu kəsməklə ermənilərin Zəngilan və Qubadlı rayonlarına əlavə qüvvələrin gətirmələrinə və orada möhkəmlənmələrinə verdiyi dəstək də artıq sübuta yetirilmiş faktlardır. Məhz Ordumuzun hücumunun iki günlük ləngiməsi səbəbindən Zəngilan və Qubadlı, eyni zamanda Arazboyu ərazilərdə itkilərimiz də çox oldu. Budur, fars-erməni qardaşlığının bizə vurduğu zərbə. Bu hadisələrdən sonra İranın müsəlman ölkəsi olduğunu kim sübut edə bilər? "Müsəlmanlar qardaşdır" ifadəsi İran rejiminin kitabından çoxdan silinib.

İran rejiminin iç üzü ona içdən baxanda daha daha aydın olur. İran ərazisindən keçməklə iki dəfə Naxçıvana getmişəm. Sadə insanların bizimlə heç bir fikir ayrılıqlarının şahidi olmadım. Eyni millət olaraq bizə daim şamaxılı, lənkəranlı, şəkili, bakılı kimi münasibət göstərirdilər. Pis münasibəti sərhəd keçid məntəqələrində, Xəli Rza Ulutürk demişkən, "alnı kərpic, gözləri tum" iranlı məmurlardan görürdük. Sifətlərindəki quru soyuqluq o saat hiss olunurdu. Gülümsəyib, xoş bir söz demək istəyin, həvəsin sivişib tabutuna girirdi.

Ardı Səh. 11

Əvvəli Səh.10

İran niyə təklənib?

Molla rejimi günahsızdırmı?

Bəli İran Azərbaycanı da özünə düşmən bilir. Fars-molla rejimi şahın - Pəhləvilərin dövründə olduğu kimi Cənubdakı Azərbaycan türklərini məhv etmək üçün hər cür imkandan yararlanır. 30-40 milyonluq milləti etnik azlıq adlandıran rejim onlara qarşı hər cür ayrıseçkilik tələləri qurur. Öz dillərində təhsil almaq, kimliyi barədə danışmaq, məktəblər açmaq, universitetdə oxumaq, hətta yeni doğulan uşaqlarına türk adlarını qoymaq kimi qadağalar tətbiq edir. Türkiyədə zəlzələ baş verəndə dünyanın hər yerindən qardaş ölkəyə yardıma tələsənlər oldu. Azərbaycan da türk qardaşlarımızın yarasını sarımaq, onları düşdüyü bu çətin durumdan çıxarmaq üçün imkanlarını səfərbər etdi. Oxşar təbiət hadisəsi Cənubi Azərbaycanın Xoy şəhərində də baş verdi.

Zərərçəkənlər məhz azərbaycanlı olduqlarına görə fars-molla rejimi onlara dəstək olmadı, xaricdən gələn dəstəyə də imkan vermədi.

Bir ay bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyinə qarşı molla rejiminin təşkilatçılığı ilə xain terror hücumu törədildi. Həmin hücum nəticəsində səfirliyimizin 1 əməkdaşı öldürüldü, iki nəfər yaralandı. Təhlükəsizliyə təminat olmadığından diplomatik nümayəndəliyimiz fəaliyyətini tam dayandırdı. İran rejimi bu müddət ərzində terror aktının araşdırılması ilə bağlı ciddi addımlar atmayıb. Halbuki bir aylıq müddət ilkin istintaqın yekunlaşması və terror aktına hüquqi qiymət verilməsi üçün kifayət edərdi. Rəsmi Tehran isə terrorçunu dəlixanaya salmaqla işini bitmiş hesab etdi. Bu azmış kimi, molla hakimiyyəti həyasızcasına Bakını olayı siyasiləşdirməkdə ittiham etdi. Budur, İran hakimiyyətinin iç üzü.

Əslində. terror aktından sonra Azərbaycan sərt addımlar atması, səfirlik əməkdaşlarının dərhal təxliyə edilməsi, səfirliyin fəaliyyətinin dayandırılması başadüşüləndir. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, terroru törədən, onun arxasında duran, terror aktının hazırlanmasında və törədilməsində iştirak edən hər kəsə münasibətdə İran tərəfindən ədalətli araşdırma aparılmayacaqsa, mətbuat, ictimaiyyət, o cümlədən Azərbaycan dövləti və cəmiyyətinə açıqlanmayacaqsa, diplomatik münasibətlər bərpa olunmayacaq. Bu, bizim təbii haqqımızdır. Nəinki vətəndaşımıza, ümumiyyətlə, Azərbaycan dövlətinin diplomatik korpusuna qarşı cinayət törədilirsə, bu cinayətin törədilməməsi üçün, diplomatik korpusun təhlükəsizliyinin təminatı ilə bağlı İran dövlətinin heç bir addım atmamasının şahidi oluruqsa, təbii ki, biz həmin dövlətlə diplomatik münasibətlərimizi bərpa etməməkdə haqlıyıq.

Qərbin İran rejiminə münasibəti

Qərbin İranla bağlı öz planları, öz tərtibləri var. Etirazlar diqqətlə izlənilir və analiz edilir. Ən böyük hədəf İranda rejim dəyişikliyinə nail olmaqdır. İrandakı rejimə alternativlərin axtarışları da intensivləşib. Pəhlədilər sülaləsinin ABŞ-da yaşayan varisi Rza Pəhləvi bu günə qədər qınına çəkilsə də, baş verən hadisələr səbəbindən fəallaşıb. Vaşinqtonda forum keçirəndən sonra Münhen Təhlükəsizlik Konfransına dəvət olunub. O, Qərb dairələrinə özünü İran rejiminə alternativ kimi sırımağa çalışır. Azərbaycanlılar və İrandakı digər etnik qruplar şah rejiminin zorakılıqlarını unutmayıblar. Pəhləvilər də indiki rejimdən heç də geri qalmır, fars millətçi kəsimini təmsil edirlər. Pəhləvinin Tehrandakı səfirliyimizə hücumu pisləməsinin məqsədli olması heç kimdə şübhə yaratmır.

Maraqlıdır, Pəhləvi kənar qüvvələrin dəstəyi ilə hakimiyyətə gələ bilərmi? Buna İranın içindən reaksiya necə ola bilər? Nəzərə alsaq ki, fərqli görüntüləri olsa da, molla rejimi ilə şah sülaləsinin başqa milət və xalqlara münasibəti eynidir, narahatlığın haradan qaynaqlandığını dəqiqləşdirə bilərik. Tanınmış journalist Əhməd Obalının məsələyə maraqlı yanaşması var: "İranda Rza Pəhləvinin seçilmə və yaxud sevilmə şansını ölçmək çox asandır, yetər ki, İran cəmiyyətinin tərkibini bilək. İranda çox millətlər yaşayır. Bəluç, ərəb, lor bəxtiyari, kürd, Azərbaycan türkləri, gilək, mazəndarani, türkmən və fars - İranda bunlar əsas millətlərdir ki, hərəsinin heç olmasa milyon üzvü var və onlar öz torpaqlarında yaşayırlar. Məsələn, ərəblər Ərəbistanda, bəluçlar Bəluçda, azərbaycanlılar Azərbaycanda, İranın şimalında giləklər Gilanda, farslar isə səhranın ətrafında, mərkəzdə yaşayırlar. Bu millətlərə bir-bir baxanda deyə bilərik ki, Rza Pəhləvinin orada nə seçilmə, sevilmə, nə də pozitiv rəy vermə şansı var. Məsələn, bəluçlar mümkün deyil ki, Rza Pəhləviyə səs versinlər, ərəblər də mümkün deyil, nadir halda, 2 mində bir ərəb tapılar ki, Rza Pəhləviyə qarşı müsbət fikri olsun, o da əlbəttə ki, olarsa. Həmçinin kürdlər, lorların ona qarşı münasibəti yaxşı deyil. Azərbaycanlıların yüzdə doxsanı, hətta daha artığı Pəhləvini istəmir. Giləklər də eyni, mazəndaranlar isə Rza Pəhləvidən, ümumiyyətlə, nifrət edirlər. Farsların öz içində də, təxminən 70 faizi Rza Pəhləvini istəmir. Beləliklə, bunları hesablayanda görürük ki, İran milləti tərəfindən Rza Pəhləvinin hakimiyyətə gəlmə şansı yoxdur".

İrandan daha bir xəyanət və erməni sevgisi

İran yenə də Ermənistana yardım etməyə davam edir. Ancaq bu dəfə daha heç nəyi gizlətmir. Əvvəllər gizlin formada etdiklərini indi açıq-aşkar edir. İranın əmək və sosial rifah naziri Seyid Sultan Mortazavi bildirib ki, İran ən yaxşı təcrübələri bölüşməyə və 2020-ci il müharibəsi zamanı əlil olmuş Ermənistan vətəndaşlarına reabilitasiya xidmətləri göstərməyə hazırdır. İranlı nazir etiraf edib ki, iki ölkə arasında xüsusilə son illərdə sıx və səmərəli əməkdaşlıq inkişaf edib. Seyid Sultan Mortazavi qonşu dövlətlərlə, xüsusən də Ermənistanla əməkdaşlığın inkişaf etdirməsini Tehranın siyasətinin əsas prioritetlərindən biri olduğunu gizlətməyib.

Ermənistana yardım edən, buna müxtəlif diplomatik don geyindirən İran eyni mövzuda Azərbaycana qarşı nə üçün addım atmır? Azərbaycanda 2972 şəhid ailəsi, 12 721 qazi var. İkinci Qarabağ müharibəsi ərəfəsində və müharibədən sonra nədənsə qonşumuz, dinimizin bir, əhalisinin böyük hissəsinin azərbaycanlılardan ibarət olduğu İrandan bu istiqamətdə yardım görmədik. Minlərlə yaralımız üçün İran heç bir köməklik etmədi. Nədənsə o zaman nazirin indi dediyi kimi "ən yaxşı təcrübələri bölüşmək" istəyi ağıla gəlmədi.

10 müsəlman ölkəsi ilə qonşu olan molla rejiminin hakimiyyətdə olduğu İran tək xristian Ermənistanla, Allahın evinə donuz bağlayan, məscidlərimizi dağıdan, müsəlmanın qanına susayan bir qondarma dövlətlə qardaşlıq edir, onun problemlərini həll edir, hətta şiələrin daha çox yaşadığı başqa bir müsəlman dövlətinə hücum etməkdə işğalçı dövlətlə birgə çalışır, ona dəstək olur. Qər ölkələri, xüsusən İsrail və ABŞ İranın nüvə proqramını diqqətdə saxlayır, əlləri tətikdə Tehranın bir səhv etməsini gözləyirlər. İllərlə tətbiq olunan sanksiyalardan əziyyət çəkən xalq artıq 5 aya yaxındır ki, küçə və meydanlardadır. Etiraz aksiyaları səbəbindən ölkə iqtisadiyyatı həddən ziyadə zərər görüb, itkilər, tənəzzül səbəbindən bu ölkənin maliyyə bazarına ağır zərbə dəyib. İran tüməni (rial) ən aşağı həddə düşüb, 1 ABŞ dolları 600 min tümənə satılır. Molla rejimi isə hələ də dözmək iqtidarında olduğu görüntüsü yaradır.

Bəli, İran təklənib, bu ölkə ilə əlaqə quran dövlətlərin sayı bir əlin barmaqları sayı qədər də deyil. Əvəzində İran hava hücumundan müdafiə təlimləri keçirir. İran Ordunun Hava Hücumundan Müdafiə və Hərbi Hava Qüvvələri, eləcə də İslam İnqilabı Keşikçiləri Korpusunun aerokosmik qüvvələrinin təlimlərinə başlayıb. Təlimlər ölkənin şimal-qərb, qərb, şərq, cənub, şimal və mərkəzindəki əraziləri əhatə etməklə İranın hava məkanının üçdə ikisini əhatə edəcək. Manevrlərin əsas mərhələsində ölkənin mühüm nüvə və hərbi obyektlərinin mühafizəsi üçün gecə saatlarında taktikanın işlənməsi planlaşdırılır. Təlimdə 100-ə yaxın pilotlu və pilotsuz təyyarə iştirak edəcək. Həmçinin, təlimlər zamanı İran hərbçiləri zenit-raket komplekslərinin saxlanması üçün istifadə olunan yeraltı tunelləri nümayiş etdiriblər.

V.VƏLİYEV

İdarəçilik bacarığı, polad iradə və...

Rövşən Quliyev,
Xızı rayon Statistika idarəsinin rəisi,
Statistika ərazi partiya təşkilatının sədri

Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycanın dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə Heydər Əliyevin xidmətləridir.

Dünya iqtisadiyyatına uğurla inteqrasiya, ölkə daxilində iqtisadi liberallaşma, kredit reytinqimizin artması, iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir.

Azərbaycanda qeyri-neft sektorunun uğurla inkişaf etdirilməsi də Heydər Əliyevin uzaqgörənliyinin məntiqi nəticəsidir. Postsovet məkanında analoqu olmayan cəsarətli qərarları ilə Heydər Əliyev torpağın şəxsi mülkiyyətə verilməsi ilə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür.

Ulu öndərin vaxtilə Cəmşid Naxçıvanski adına hərbi liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun Cənubi Qafqazda aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Heydər Əliyevin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Xalqımızın ümummilli liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni saymaması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Heydər Əliyevin XX əsrdə totalitarizmin Azərbaycana qarşı törətdiyi faciələrin davamı kimi qanlı 20 Yanvarı xalqımız əleyhinə hərbi, siyasi və mənəvi təcavüz kimi qiymətləndirməsi onun ömrü boyu sadiq qaldığı siyasi məfkurəsinin və yüksək vətənpərvərliyinin yeni siyasi şəraitdə təcəssümü idi. Mövcud siyasi, iqtisadi və sosial böhran müstəqilliyimizin ilk illərində Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdığı bir dövrdə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi gün - 1993-cü ilin 15 iyunu tariximizə Qurtuluş Günü kimi daxil olmuşdur. Bu qurtuluş qısa bir zamanda özünü nəinki siyasətdə, həm də iqtisadiyyatda, təhsildə, mədəniyyətdə və insanların gündəlik real həyatında büruzə vermişdir.

Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla sosial yönümü ilə səciyyələnirdi. Bu gün Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, yüzlərlə senzurasız qəzet və jurnalın nəşr olunduğu, eləcə də çox sayda özəl telekanalların yayımlandığı və internet şəbəkəsi istifadəçilərinin sayının sürətlə artdığı bir ölkədir.

Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.

Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün böyük tikinti meydançasını xatırladır. Yüzlərlə sənaye və infrastruktur obyektləri, məktəblər, xəstəxanalar, idman qurğuları, yaşayış evləri, inzibati binalar və digər tikililər ucaldılır, yollar salınır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası bizim gələcək planlarımızı əks etdirməklə yanaşı bir daha sübuta yetirir ki, Heydər Əliyevin ölkəmizin sürəkli tərəqqisini bu gün də təmin edən irimiqyaslı proqramları xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir- birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi- mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Azərbaycanın Müzəffər Ordusu 30 illik işğala son qoydu. Beləliklə, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğradı, Ermənistan ordusu darmadağın edildi və "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan Ali Baş Komandan İlham Əliyev müharibə dövründə onlarla müsahibələr vermiş, bəzi ermənipərəst jurnalistlərin təxribat dolu suallarına; tarixi faktlar və dəlillərlə cavablandırmışdır.

Zərərdidə tələbələr: Distant təhsillə həkim olar?

Zəlzələ bölgəsindəki universitetlərə qayıda bilməyən tələbələr distant təhsildən narahatdır

Türkiyədəki məlum zəlzələdən sonra fəlakətin baş verdiyi bölgələrdə təhsil alan azərbaycanlı tələbələrlə bağlı ölkəmizdə də narahatlıq var. Zəlzələdən sonra Kahramanmaraş, Adana, Malatya, Adıyaman, Hatay, Şanlıurfa, Diyarbakır, Qaziantep, Kilis və Osmaniye vilayətlərindəki ali təhsil müəssisələrində təhsil qeyri-müəyyən müddətə dayandırıldı. Zəlzələ nəticəsində daha çox dağıntıya məruz qalan bölgələrdə təhsil alan azərbaycanlı tələbələrin sayının təxminən 700-800 aralığında olduğu bildirilir. Rəqəmlər Kahramanmaraşda 100, Hatayda 27, Adıyamanda 4, Osmaniyədə 35, Diyarbakırda 26, Elazığda 212, Urfada 14, Zonquldaqda 1, Qaziantepdə 86, Adanada 169, Kilisdə 2, Malatyada 136 nəfər olaraq açıqlanıb. Dəhşətli fəlakət nəticəsində 4 azərbaycanlı tələbə həyatını itirdi.

Valideynlər qorxur, tələbələr distant təhsil istəmir

Valideynlər övladlarını zəlzələ bölgəsində həyat bərpa ediləndən sonra da göndərməyə cəsarət etmədiklərini deyirlər. Övladı Malatya İnönü Universitetində 2-ci kursda təhsil alan valideyn Humay Məşədiyeva deyir ki, övladı dərslərinə, hələlik, distant təhsil yolu ilə davam edəcək, lakin bölgədəki zəlzələ dağıntılarının aradan qaldırılmasından və universitetin fəaliyyətini bərpa etməsindən sonra təkrar ora tələbə göndərmək fikrində deyil: "Hələ bilmirəm necə olacaq, köçürmə hansı yolla olacaq, amma ya öz universitetlərimizə, ya da başqa bir ölkəyə köçürülməsinə çalışacağıq. Tibb ixtisasında distant təhsil övladıma heç nə qazandırmayacaq, online dərslə həkim olmaq olar?".



Bəs universitet təhsilinin keyfiyyəti baxımından distant təhsil üzbəüz təhsili əvəz edə bilərmi? Pedaqoqlar bu suala "pandemiya təcrübəsi" əsasında "xeyr" cavabını verirlər. Biz bu təcrübəni Covid -19 pandemiyası zamanı təhsilin "online" versiyaya keçirilməsindən sonra yaşadıq. Şagird və tələbələr "online" təhsildən heç nə qazanmadılar. Xüsusilə, ötən il və bu il məzun olacaq tələbələrin aldıqları diplomların yarısından çoxu distant təhsillə əldə edilən biliklər olacaq. Ona görə də onların aldıqları təhsillə, hansı sahədə lazımınca yetişdirildikləri ilə bağlı çox sayda tərəddüdlər var. Distant təhsil texnologiyasından nə qədər yaxşı istifadə etsəniz də, üzbəüz təhsilin üstünlüklərini əldə etmək mümkün deyil.

Türkiyədəki məlum zəlzələdən sonra bölgədə mövcud olan tikililərin böyük əksəriyyəti yaşamağa uyğun deyil, insanlar çadırlarda yaşayır, universitetlərin salamat qalan yataqxanalarına zərərdidələr yerləşdirilir. Yataqxanasını, universitetini tərk etmək məcburiyyətində qalan başqa ölkədən olan tələbə geri qayıdıb Türkiyədə məskunlaşa, təhsilinə davam edə biləcəkmi? Yenidən ev kirayələyə biləcəkmi? Kirayələmək üçün sağlam qalmış ev tapa biləcəkmi? Ümumiyyətlə, dağılmış şəhərlər, yerlə-yeksan olmuş binalar bərpa edilənədək bunların mümkün olmayacağı bəllidir. Bərpa prosesi isə illərlə vaxt tələb edir, Türkiyə hökuməti hər nə qədər bir neçə aya bərpa edəcəyini desə də.

Bəs köçürülmə məsələləri necə tənzimlənir?

Türkiyə universitetlərində təhsil alan azərbaycanlı tələbələrin əksəriyyəti indi köçürülmə barədə maraqlanır. Mövcud qanunvericiliyin tələblərinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları xarici ölkələrin universitetlərində aşağıdakı hallarda təhsil ala bilər.

1. Azərbaycan Respublikasının maliyyəsi hesabına "Dövlət Proqramı" çərçivəsində.
2. Hökumətlərarası təqaüd proqramı ilə.
3. Tələbənin öz maliyyəsi hesabına.

Təhsil eksperti Ramin Nurəliyev bildirir ki, xarici ölkələrdə təhsil alan gənclərimizin böyük qismi Türkiyə, Rusiya və Ukraynada təhsil alırlar. Rusiya və Ukrayna arasında gedən müharibə tələbələrdə böyük narahatlıqa səbəb oldu. Ukraynada təhsilini yarımçıq qoyan tələbələr, həmçinin Rusiyada gələcək iqtisadi problemləri nəzərə alan valideynlər tərəddüd içindədir.

Ekspertin sözlərinə görə, bu səbəblərdən dolayı tələbələrin böyük bir qismi qardaş Türkiyədə oxumağa üstünlük verirdi: "Amma Türkiyədə baş verən şiddətli zəlzələ və vəfat edənlərin içində azərbaycanlı tələbələrin də olması bir çox valideyni fikrindən daşındırdı. Xüsusilə də, dövlət proqramı ilə Türkiyədə təhsil alan tələbələrin narahatlığı daha çox diqqətçəkicidir".

Ramin Nurəliyev deyir ki, bunun da səbəbi onların qəbul olduğu universitetlərə və ixtisaslara görə dövlət təqaüd almalarıdır. Maraqlıdır, bəs bu tələbələr həmin universitetlərdən imtina etdikdə və yaxud başqa bir ölkəyə transfer olunduqda bu proses necə tənzimlənməlidir? Ekspertin sözlərinə görə, dövlət təqaüdü ilə təhsil alanlar dövlət qarşısında öhdəlik götürür və bu təqaüd həmin tələbəyə qəbul olduğu ölkə və universitetə görə təyin edilir, tərəflər arasında razılaşdırılır: "Tələbə özbaşına transfer etdikdə öhdəliyi yerinə yetirməmis olmaqla dövlət təqaüdündən məhrum olunur. Bu kimi fövqəladə hallarda tələbə müqavilə bağladığı icraedici orqan ilə görüşməli, məsləhətləşməli və razılığı əldə edilərək ona müvafiq addım atmalıdır. Əgər icraedici orqanın razılığı olmadan tələbə transfer edərsə, ona ayrılan təqaüd dayandırıla bilər".

İkinci kateqoriya öz maliyyəsi hesabına təhsil alanlardır ki, o tələbələrin köçürülməsində qanunvericiliyin tələblərinə riayət olunmaqla hər hansı bir əngəl yoxdur. Ekspert deyir ki, bu tələbələrin həm Azərbaycan universitetlərinə, həm də başqa bir ölkəyə transferi mümkündür: "Amma burada da Elm və Təhsil Nazirliyinin xüsusi qaydaları öz əksini tapmaqdadır. Əgər tələbə qəbul olduğu tədris ilində Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanında iştirak etmiş, lakin buna rəğmən Azərbaycandan kənarda təhsil almaq üçün getmişsə və müəyyən vaxt sonra təkrar Azərbaycan universitetlərində təhsil almaq qərarına gələrək transfer üçün müraciət edəcəyi ixtisasın balını toplamışsa, həmçinin SAT, TOEFL, IELTS imtahanından tələb olunan nəticəsi varsa, bu zaman transfer üçün müraciət edə bilər. Yox, əgər tələbə attestat balı, ortalaması, YÖS imtahanı nəticəsi ilə qəbul olunubsa, bu zaman transferi qəbul edilməyəcək. Əgər tələbə başqa bir xarici universitetə transfer etmək istəyirsə, o zaman həmin ölkənin transfer qaydaları ilə tanış olmalı, tələb olunan imtahan nəticəsi və sənədləri hazırlayaraq müraciət etməlidir".

Qeyd edək ki, Elm və Təhsil naziri Emin Əmrullayevin ötən aylarda bununla bağlı qəti mövqeyi mətbuatda yer almışdı. Nazir qış transferinin olmayacağını və sistemin təkmilləşdiriləcəyini ictimaiyyətə açıqladı. Ramin müəllimin sözlərinə görə, yayda transfer qaydalarında dəyişiklik edilərkən müəyyən qədər yumşaltma da nəzərə alınacağı ehtimal olunur: "Hal-hazırda Ukrayna və Türkiyə universitetlərindən kütləvi şəkildə transfer üçün müraciətlər gözlənilir. Çox arzuolunan olardı ki, mövcud vəziyyətlə bağlı Ukrayna və Türkiyə universitetlərində təhsil alan tələbələrə müəyyən güzəştlər olunsun. Azərbaycan universitetlərində çox sayda boş yerlər var ki, bunlara transfer ilə xarici tələbələrin köçürülməsində köməklik göstərilsin. Həm maliyyəmizin xaricə daşınmasının müəyyən qədər qarşısı alınmış olar, həm də Ukraynada müharibə səbəbindən, Türkiyədə də zəlzələ səbəbindən təhsilini yarımçıq qoyan tələbələrimiz arzularına çatardı".

Lalə Mehralı

Tehran rejiminin növbəti hədəfi - məktəbli qızlar!

Ölkənin müxtəlif şəhərlərində fəaliyyət göstərən məktəblərdəki şübhəli zəhərlənmə hadisələri beynəlxalq aləmi narahat edir

Artıq üç aydır ki, ardıcıl olaraq İranın 10-dan çox şəhərlərində fəaliyyət göstərən onlarla məktəblərdə təhsil alan məktəbli qızların şübhəli şəkildə zəhərlənmə faktları üzə çıxmaqdadır. Artıq ağır kimyəviqaz zəhərlənmələrinə məruz qalan qız uşaqları arasında ölənlər də var ki, sözügedən fakt yalnız ölkədəki insanları deyil, həm də beynəlxalq aləmi ciddi şəkildə narahat etməyə, tələşlandırmağa başladıb. Zəhərlənmə faktları ilə bağlı aparılan qeyri-rəsmi araşdırmalar da göstərir ki, məsələnin kökündə zəhərli kimyəvi qaz məhlulu dayanır.

Məsələnin get-gedə böyüməsi isə məktəbli qız Fatimə Rezainin kimyəvi qazdan zəhərlənərək həyatını itirməsindən sonra daha da aktuallaşdı

Digər tərəfdən, insidentlərin yaşandığı ərazilər də nəzərə alındıqda qənaətə gəlinən ilk nəticə belədir: İran məktəbləri kütləvi olaraq kimyəvi terror hücumlarına məruz qalır. Və maraqlı məqamlardan biri də budur ki, İranın xüsusi xidmət əməkdaşları baş verən hadisələrlə bağlı apardıqları "araşdırmaların" nəticəsiz qaldığını deyir və nəyin baş verdiyini anlamadıqlarını bildirirlər. Sözügedən məsələnin get-gedə böyüməsi isə məktəbli qız Fatimə Rezainin kimyəvi qazdan zəhərlənərək həyatını itirməsindən sonra daha da aktuallaşdı.

Hakimiyyət isə özünü sığortalayaraq belə bir bəyanat yaydı. Sİ-TAT: "Məktəbli qızların ardıcıl zəhərlənmələrini, onların fiziki və psixiki təsirlərə məruz qaldıqlarını nəzərə alaraq məktəblər onlayn təhsil rejiminə keçməlidirlər".

Dəhşət doğuran belə bir olaylardan sonra Tehran hökumətinin sadəcə belə bir "qərar" verməsi isə növbəti sualları, həmçinin iddiaları ortaya çıxarmış olur...

Məktəbli qızların zəhərlənmələrə məruz qalmaları həm də onların təhsil almalarının qarşısını almağa yönəlmiş üsuldur

Məhz ilk ağıla gələn də budur ki, həmin hadisələrin təməlində hakimiyyətin özü dayanmaqdadır. Məqsəd isə budur - kütləvi etirazların artmasının qarşısını almaq üçün məktəblər bağlanmalıdır. Çünki məcburi hicab məsələsinə etiraz edənlərin də əksəriyyəti elə məktəbli qızlardır. Xüsusilə onların məktəb siniflərində İranın ali dini liderlərinin şəkilləri qarşısında başları açıq və s. xarakterli pozalar göstərmələri Tehran rejiminin vəhşi üsula - qazla kimyəvi zəhərlənə terror vasitəsinə əl atmasına səbəb olmaqdadır.

Bu arada, BBC-nin də verdiyi məlumat diqqət çəkməkdədir. Media qurumu İranda Noyabrdan bəri ən azı 700-ə yaxın qızın zəhərləndiyini müəyyən edib. "İranlı məktəbli qızları kim zəhərləyir?" sərlöhvəli yazıda bildirilir ki, hökumətin "rəsmi versiyaları" ilə yanaşı İran cəmiyyətində daha konkretləşdirilmiş nəticələr yaranır ki, məktəbli qızların zəhərlənmələrə məruz qalmaları həm də onların təhsil almalarının qarşısını almağa yönəlmiş üsuldur. Övladlarına görə təlaşlanan valideynlər hesab edirlər ki, bu, birbaşa hakimiyyətə bağlı olan radikal qrupların işidir. Bu baxımdan BBC də sual edir - görəsən, məktəbli qızların azadlıqları uğrunda anti-hökumət etirazlarında iştirakları, sonradan isə zəhərlənmələri radikal qrupların onlara verdiyi cavab sayıla bilərmi?

İran ictimaiyyətinin digər kəsimi isə belə qənaətə gəlir ki, zəhərlənmə vasitəsi islam fundamentalistliyini təşkil edən Əfqanıstan "Talibanının", yaxud Nigeriya "Boko Haramının" təhdid etmə, qorxutma taktikalarıdır ki, insanlar öz qız övladlarını təhsil almağa yönəltməsinlər. O da əbəs deyil ki, İrandakı hüquq müdafiəçilərinin iddialarına görə, insidentlərin arxasında "Hazarexqara" adlı dini və anti-monernist şəbəkə dayanır ki, onun məqsədi qadın təhsilinin qarşısını almaqdan ibarətdir və bu şəbəkənin də gizli olaraq İranın hakimiyyət dairələrinə bağlı olan qollarının olduğu istisna edilmir.

Etirazlar artır!

O da qeyd edilir ki, İranın dini mərkəzi sayılan Qum şəhəri kütləvi zəhərlənmənin episentrindədir, lakin belə hücumlar ölkə boyunca daha səkkiz şəhərdə baş verib.

Hadisələrlə bağlı ictimai narazılıqlar isə artmaqdadır. Belə ki, ilk zəhərlənmə halları 30 noyabr 2022-ci ildə Qumdakı Nur Texniki Liseyinin 18 şagirdinin xəstəxanaya yerləşdirilməsi vaxtı qeydə alınıb. Ondan bəri bölgədə daha 10-dan çox məktəbli qız zəhərlənib.Fevralın ortalarında ən azı 100 nəfər Qum qubernatorluğu qarşısında etiraz aksiyası keçirib.

"Uşaqlarımın təhlükəsizliyini təmin etməlisiniz! Mənim iki qızım var", sosial şəbəkələrdə yayılan etiraz videolardan birində qışqıran atanı görmək olar. "İki qızım... və mənim onları məktəbə buraxmamaqdan başqa çarəm yoxdur..."

"Bu, müharibədir!", eyni videodakı qadın deyir. "Qumdakı qızlar liseyində bunları edirlər ki, bizi evdə oturmağa məcbur etsinlər. Qızların evdə qalmasını istəyirlər!"

Bəzi valideynlər isə zəhərlənmədən sonra uşaqlarının həftələrlə xəstə qaldığını deyir.

Xəstəxanadan çəkilən başqa bir videoda yeniyetmə qızının yatağı yanında danışan ananı görmək görmək olar. "Əziz analar, mən anayam və uşağım xəstəxana çarpayısındadır, onun əl-ayağında gücü qalmayıb", deyə ana deyir.

"Onu çimdikləyirəm, amma heç nə hiss etmir. Xahiş edirəm, uşaqlarınızı məktəbə göndərməyin".

Qum şəhərinin qubernatoru ilə görüşlərdən birində iki dəfə zəhərləndiyini vurğulayan məktəbli qızın dedikləri isə rejim tərəfindən verilən rəsmi açıqlamalarının nə qədər qeyri-müəyyən və yanlış olduğunu göstərir. "Onlar [rəsmilər] hər şeyin yaxşı olduğunu, istintaqın keçirildiyini deyirlər. Ancaq atam məktəbdə sual verəndə, ona bildiriblər ki, müşahidə kameraları artıq bir həftədir işləmir və hadisəni araşdıra bilmərik", deyə məktəbli qız əlavə edir və onu da bildirir ki, hətta məkbət direktoru onun yerinə cavab verir, yalan məlumat ötürür: "Bazar günü ikinci dəfə zəhərləndiyim zaman məktəb direktoru, "ürəyində problem var deyə xəstəxanaya yerləşdirilib" dedi. Halbuki mənim ürəyimlə bağlı heç bir problemim yoxdur!".

Beləliklə, İranda baş verənlər artıq belə nəticəyə də gəlməyə kifayət qədər zəmin yaradır ki, ölkə hakimiyyəti öz xalqına qarşı amansız terror aktlarına əl atmaqdan çəkinmir və bu reallıq, əslində, Tehran rejiminin çöküşü prosesini daha da sürətləndirir.

Rövşən RƏSULOV

İLHAM

Makron özündə cəsarət və qətiyyət tapa bilərmi?

Bəzi ermənipərəst dairələr, dövlətlər növbəti dəfə böyük təşviş və qorxu keçirməyə başlayıblar. Nədən ki, Azərbaycan dövləti suveren ərazilər olan Xankəndidə, Xocalıda, Ağdərədə və digər rus sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərdə qanuni hakimiyyəti bərpa etməyə başlayır. Qarabağdakı reallığı dərk etməyi bacaran erməni başları revanşist açıqlamalarla çıxış etməyin mənasız olduğunu anlayırlar. Bu baxımdan, onlar Azərbaycan cəmiyyətinə inteqrasiya olunmağa çalışırlar. Təbii ki, Azərbaycan cəmiyyətinə inteqrasiya edilmiş ermənilərin yaşayışı indiki yaşayışlarından qat-qat yaxşı olacaq. Artıq üç dəfə ermənilərlə görüş keçirilib. Növbəti görüşlərin isə Gəncə, Ağdam və Bərdə şəhərlərində rus sülhməramlılarının vasitəçiliyi olmadan keçiriləcək. Bütün bu kimi müsbət nəticələr qeyd etdiyim kimi bəzi yerli və xarici qüvvələri ciddi narahat edir. Hər vəchlə prosesi pozmağa və yenidən bölgədə gərginlik yaratmağa çalışırlar. Fransanın tutduğu səhv və qərəzli mövqeyi buna misal olaraq göstərmək olar. Makron deyilən zad vaxtaşırı sülhə və təhlükəsizliyin təmin olunmasına gedən yolu ermənilərə müəyyən şirnikləndirici vədlər verməklə pozmağa çalışır. Hətta Ermənistanın sağlam qərarlar qəbul etmək və fikirlər səsləndirməkdən uzaq olan baş naziri Paşinyanın başını Marseldə istehsal olunan donuz yağı ilə sığallamaqla Ermənistan sərhədlərinə jandarma qüvvələri göndərib. Bu üzdəniraq qüvvələrin nə iş görəcəkləri, hansı erməni şalvarına yamaq olacaqları müəmmalı görünsə də, bəlli olan məsələ ondan ibarətdir ki, Makron getdikcə, öz sələflərinə uyğun üzünü daha açıq şəkildə nümayiş etdirməkdədir. Söz yox ki, imkanı olsa və şərait yaransa, Afrikada və Əlcəzairdə daha bir vəhşiliklər, soyqırımı aktları törədər. Dünya birliyinin susqunluğundan istifadə edərək müstəmləkə siyasətini bir qədər də genişləndirər.

Fakt budur ki, Fransanın 50-yə yaxın ölkənin ərazisində törətdiyi insanlıq və müharibə cinayətləri dünya xalqları tərəfindən sərt şəkildə ittiham olunur. Buna baxmayaraq Beynəlxalq Məhkəmə hələ də törədilən vəhşiliklərə görə Fransa haqqında ədalətli qərar qəbul etməyir. Bu da bir daha dünya birliyinin ikili standartlardan çıxış etdiyini göstərir. Nəzərə lamq lazımdır ki, Əlcəzairin Reggan və İn Ecker adlanan ərazilərində Fransa tərəfindən 17 nüvə sınağı gerçəkləşdirilmişdir ki, onlardan 11-i yeraltı sınaqlar olmuşdur. 1830-1962-ci illəri əhatə edən Əlcəzair işğalı dövründə 1,5 milyondan artıq insan qətlə yetirilib. 1961-ci il oktyabrın 17-də on minlərlə əlcəzairli Fransa işğalını pisləmək üçün Parisdə nümayiş keçirdiyi zaman Fransa polisinin açdığı atəş və etirazçıların Sena çayına atılması nəticəsində 1500-ə qədər əlcəzairli qətlə yetirilib, on mindən çox şəxs həbs olunub. Bu hadisə tarixə "Sena qətliamı" kimi daxil olub. Fransanın işğal etdiyi Mərakeşdə 1907-ci ilin avqustunda "Kasablanka döyüşü" kimi yaddaqalan hücumu nəticəsində 3 minə yaxın mərakeşli qətlə yetirilib.1961-ci ildə Tunisdə Fransa hərbi bazasının bağlanmasını tələb edən 5000-ə yaxın tunisli qətlə yetirilib. 29 noyabr 1947-ci ildə Vyetnamda törədilən qətliam nəticəsində fransızlar 170-i qadın və 157-si uşaq olmaqla yüzlərlə vyetnamlını vəhşicəsinə öldürüb. 400-ə yaxın evin yandırıldığı bu qətliamlar zamanı vyetnamlı qadınlar güllələnməmişdən əvvəl fransız əsgərləri tərəfindən zorlanıb. 1994-cü ildə Fransa Ruandada "təhlükəsiz zona yaratmaq" adı altında hərbi əməliyyat keçiriblər. Nəticədə, fransız silahlı qüvvələrinin və onlara qoşulan yerli münaqişə tərəfinin də iştirakı ilə Ruandada tutsi qəbiləsinin 800 mindən çox üzvü öldürülüb.

Yeri gəlmişkən beynəlxalq aləm, aparıcı dövlətlər Fransanın xalqlara və dövlətlərə qarşı törətdiyi vəhşiliklərə etinasız yanaşsalar da, hər zaman haqsızlığa uğrayana arxa olan, ədalətsizliklə üzləşənə dəstək olan Azərbaycan dövləti, Onun Prezidenti İlham Əliyev Fransanın törətdiyi qətliamlara suqunluq göstərməyir, qəsbkarın cəzalandırılması tələbi ilə dünya ictimaiyyətinə çağırışlar edir. Martın 2-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bildirib ki, Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləmişdir: "Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq".

Təbii ki, Fransa hökuməti, onun Prezidenti E.Makron özündə cəsarət və qətiyyət tapsa, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin çağırışından nəticə çıxarar və qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəyər və məsuliyyətini etiraf edər.

Ümumiyyətlə, faktlar və reallıqlar təsdiq edir ki, bu gün Fransa iqtisadi, siyasi və hərbi nöqteyi-nəzərdən zəif ölkələrdən biri olaraq tanınsa da iddialı siyasətini nümayiş etdirməkdədir. Hər fürsətdə Emmanuel Makron ambisiyalı çıxışlar edib, hay-küylü açıqlamalar verir. Ancaq əminliklə demək olar ki, onun pafoslu çıxışlarına heç ətrafında olan insanlar belə inanmırlar. Məhz bu inamsızlığın nəticəsidir ki, nümayişlər zamanı əhali Makronu şillələyir, ona yumurta atır, müxtəlif sərt ifadələrlə təhqir edirlər. Söz azadlığından, demokratiyadan əsər-əlamətin olmadığı Fransa batmaqdadır, səbəkar isə E.Makrondur. Çünki onun apardığı yarıtmaz, yanlış siyasət "sarı jiletli"lər hərəkatı vasitəsi ilə Parisi qan gölünə çevirib. Əminliklə demək olar ki, proseslər belə davam edərsə, E.Makron fransızlar tərəfindən devriləcək və o, məhlkəmə qarşısına çıxarılacaq. Təbii ki, məhkəmə onu ən ağır cəzaya məhkum edəcək.

REPORT

Rusiyalı ekspert:

"Qarabağda yalnız Azərbaycan vətəndaşı olan ermənilər qalacaq"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb

Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko Sergey Lavrovun Azərbaycana səfəri, Qərbin Cənubi Qafqaza münasibətini Moskvanın səciyyələndirməsi və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ətrafında baş verən son hadisələr barədə "Moskva-Baku" potalına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.

- Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Qərbin Cənubi Qafqazdakı vəziyyətə müdaxilə cəhdlərini "kobudluq" adlandırıb.

- Ermənistanın Aİ-nin qondarma monitorinq missiyasını öz ərazisində yerləşməyə dəvət etməsinə Rusiya elitasının reaksiyası kəskin mənfidir. Bu, təkcə XİN-ə deyil, xarici siyasət qərarlarının hazırlanması və qəbulu ilə məşğul olan digər strukturlara da aiddir. Təbii ki, Kremlin özünün son dərəcə mənfi münasibəti. Rusiya XİN rəsmi nümayəndəsinin şərhləri yalnız bu faktı təsdiqləyir.

Nəyə görə kəskin neqativ münasibət - çünki Avropa İttifaqı ilə Rusiya arasında geosiyasi münaqişənin kəskin mərhələsinin olduğu bir şəraitdə Ermənistan faktiki olaraq Aİ-nin monitorinq missiyasını özünə dəvət edərək, "kollektiv Qərb" mövqeyi ilə həmrəydir.

Aİ-nin qondarma "mülki" monitorinq missiyası Cənubi Qafqazda Aİ-yə üzv dövlətlərin xarici kəşfiyyat orqanlarının təxribat fəaliyyətinin pərdəsidir. "Müşahidəçilər", əsasən, Rusiyanı regiondan sıxışdırıb çıxarmaqla, İrəvanla Moskva arasında müttəfiqlik münasibətlərini pozmaqla məşğul olacaq xüsusi xidmət orqanlarının işçiləridir. Ermənistan faktiki olaraq Rusiyaya qarşı təxribatçı fəaliyyətlə məşğuldur.

- Bakıda mətbuat konfransında Sergey Lavrov bildirib ki, Ermənistanın baş nazirinin Rusiyanın respublikada hərbi mövcudluğunun təhlükəsizliyə zəmanət vermədiyi, əksinə, təhlükəsizliyə təhdid olması barədə əvvəllər dediyi sözləri Paşinyanın vicdanına buraxıram...

- Bu, nazirin belə sadələşdirilmiş diplomatik ifadəsidir. Diplomatik dildən siyasi mesaja çevrilən bu, Ermənistan rəhbərliyinin fəaliyyətinə daha bir kəskin mənfi cavabdır.

- Ermənistan parlamentinin sədri Alen Simonyan bəyan etdi ki, Qarabağ məsələsi heç bir şəkildə Ermənistanla Azərbaycan arasında sazişdə əksini tapmamalıdır. Bu bəndi sülh müqaviləsinə daxil etməyə bu qədər fəal cəhd edən İrəvanın mövqeyi necə oldu? Yoxsa bütün bunlar, sadəcə, reklamdır?

- Nikol Paşinyanın ətrafının atmacalarını şərh etmək mənasızdır. Qarabağ Azərbaycandır. Alen Simonyanın bəyanatının heç bir mənası yoxdur, siyasi baxımdan əhəmiyyətsizdir. Hər şeyi deyə bilər. Qarabağ Azərbaycandır.

Azərbaycan Qarabağın erməni icması ilə təmaslar üzrə nümayəndə təyin edib. Xocalıda Rusiya sülhməramlı kontingentinin komandanlığının vasitəçiliyi ilə Azərbaycan nümayəndəsi ilə erməni ictimaiyyət nümayəndələri arasında birbaşa təmaslar aparılıb.

Qarabağ bölgəsində Ermənistan tərəfinin qanunsuz hasilat həyata keçirdiyi yataqların ekoloji monitorinqi prosesi praktiki icra mərhələsinə yaxınlaşır. Və yaxın gələcəkdə Azərbaycan dövlətinin müvafiq nəzarət orqanları lazımi tədbirləri görə biləcəklər.

Görüşdə Qarabağda yaşayan erməni icması nümayəndələrinin necə inteqrasiya olacağı ilə bağlı müzakirələrə başlanılıb. Yəni, Qarabağın erməni əhalisinin Azərbaycanın hüquqi müstəvisinə inteqrasiyası üçün konkret əməli işlərə başlanılır. Bunu istəməyənlər köçməli olacaqlar. Ya Ermənistana, ya ABŞ-a, ya Fransaya, ya da başqa yerə. Qarabağ ərazisində yalnız Azərbaycan vətəndaşlığını qəbul etməyə razı olan və Azərbaycan qanunları ilə yaşayan ermənilər qalacaq.

- Həmin Simonyan İrəvanın Ermənistan-Azərbaycan sərhədi ətrafındakı vəziyyətlə bağlı Rusiyanın mövqeyini tənqid etməsinə Moskvanın reaksiyasını "şişirdilmiş əsəbilik" adlandırıb və əlavə edib ki, "Rusiya bu problemi həll etməli idi", çünki Ermənistanın təhlükəsizliyinin, ərazi bütövlüyünün təminatçısıdır və əgər bunu edə bilmirsə, o zaman ictimaiyyətə bəyan edilməlidir.

- Mən artıq öz mövqeyimi açıqlamışam: əgər bəzi siyasi xadimlər özlərini dünya sivilizasiyasının taleyinin hakimi kimi təsəvvür edirlərsə, bu, çox gülünc və axmaqlıqdır. Rusiyada bütün xarici siyasət qərarlarını prezident Vladimir Putin verir. Buna görə də, heç kim "əsəb" reaksiyası ilə bağlı hər hansı bəyanatı ciddi qəbul etməyəcək.

- Sergey Lavrovun Bakıya səfərinin əhəmiyyəti nədir?

- Bir il əvvəl Rusiya və Azərbaycan liderləri tərəfindən imzalanmış müttəfiqlik əməkdaşlığı haqqında bəyannamə əlamətdar sənəddir. Rusiyanın siyasi təbəqəsi, Kreml, təbii ki, Azərbaycanı hətta postsovet məkanında da deyil, dünya geosiyasətinin qlobal sahəsində əsas tərəfdaşlarımızdan, müttəfiqlərimizdən biri hesab edir. Sergey Lavrovun çıxışında qeyd etdiyi kimi, Rusiya prezidenti şəxsən Azərbaycanla müttəfiqlik əməkdaşlığının inkişafına ciddi diqqət yetirir. Bakı ilə Moskva arasında müttəfiqlik əlaqələri həm regional, həm də beynəlxalq müstəvidə sabitləşdirici amildir

İndi isə Sergey Lavrovun Bakıya səfəri zamanı tərəflər Bəyannamədə müəyyən edilmiş qarşılıqlı öhdəlikləri bir daha təsdiqləyiblər. Rusiya diplomatiyasının rəhbərinin səfəri qlobal geosiyasi təlatümlərin belə çətin dövründə Moskva ilə müttəfiqlik münasibətlərini inkişaf etdirməyə yönəlmiş mövqeyinə sadiq qaldığına görə rəsmi Bakıya hörmət və təşəkkür etmək məqsədi daşıyırdı. Azərbaycan Prezidenti Rusiya xarici işlər naziri ilə görüşdə Rusiyanın respublika üçün qardaş, müttəfiq və qonşu olduğunu vurğulayıb.

Tərəflər həmçinin diqqəti təkcə ikitərəfli deyil, həm də regional və hətta haradasa qlobal xarakter daşıyacaq meqalayihələrin həyata keçirilməsinə yönəltdiklərini diqqətə çatdırıblar. Lavrov qeyd edib ki, bu, Rusiya və Azərbaycanın aparıcı iştirakı ilə bu regionda əməkdaşlığın nə qədər perspektivli olduğuna sübutdur. Bura Şimal-Cənub nəqliyyat dəhlizi, Transxəzər marşrutları, Xəzər ehtiyatlarının birgə işlənməsi daxildir. Bu, yanacaq-energetika kompleksində əməkdaşlıq, sənaye istehsalı sahəsində əməkdaşlıqdır.

Mən iqtisadi bazanın inkişaf etdirilməsini çox vacib hesab edirəm. İqtisadiyyatın birinci yerdə olmasının qəti tərəfdarıyam. Regional iqtisadiyyatların inteqrasiyası vacibdir, çünki bu gün qloballaşma özünün zəifliyini və çox vaxt lazımsız olduğunu göstərmişdir. Amma regional ittifaqların- iqtisadi, siyasi birliklərin qurulması irəliləyiş üçün perspektivli və səmərəli yoldur. Ona görə də tərəflər Azərbaycanın Aİİ ilə əməkdaşlıq üçün hansı imkanları tapa biləcəyini də müzakirə ediblər, qeyd olunub ki, Azərbaycan hökumətinin başçısı yenidən strukturun sammitinə dəvət olunub. Rusiya və Azərbaycan beynəlxalq strukturlarda- xüsusən də təşkilat statusuna yüksəldilməsi planlaşdırılan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə əməkdaşlığın gücləndirilməsinə yönəlib.

Təbii ki, əsas, mərkəzi, ən vacib mövzulardan biri regional təhlükəsizlikdir, yəni Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanmasıdır. Biz burada ümumi mövqedən danışdıq- biz Ermənistanın qeyri-konstruktiv mövqeyini, onun üçtərəfli öhdəlikləri yerinə yetirmək istəmədiyini bildirdik. Rusiya 2023-cü ilin Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasında sıçrayış ili olacağına və Prezident İlham Əliyevin formalaşdırdığı 5 əsas prinsipə əsaslanan sülh müqaviləsinin imzalanacağına ümid etdiyini bildirən Prezident Əliyevin fikrini dəstəkləyib.

Həmçinin regionda tamamilə yeni iqtisadi vəziyyətin lokomotivi olacaq Zəngəzur dəhlizinin açılmasına nail olmaq lazımdır. Rusiya və Azərbaycan tərəflərinin Bakıda qeyd etdiyi kimi, Zəngəzur dəhlizinin açılması "Şimal-Cənub"un Türkiyəyə çıxışını təmin edəcək.

Moskvanın Cənubi Qafqazda sülh və təhlükəsizliyin açarının üçtərəfli bəyanatların həyata keçirilməsi olduğunu vurğulaması vacibdir. Ermənistan bütün normallaşma proseslərini əngəlləməklə, sadəcə olaraq, öz ayağına güllə atır və bununla da sosial-iqtisadi tərəqqini ləngidir. Zəngəzur dəhlizinin açılması məsələsinin çox siyasiləşdiyini görürük. Rusiyadakı səs-küylü erməni lobbisi bu dəhlizə gələndə sadəcə tüpürcəklə boğulur, Türkiyəni şeytanlaşdırır. Bütün bunlar milli eqoizmin rənglərinə boyanmışdır.

- Lavrovun səfəri Ermənistan üçün nəyi göstərdi?

- Əslində, biz orada Ermənistana heç nə göstərmək istəmirdik. Sadəcə olaraq, səfərdə bu gün Rusiyanın Azərbaycanla, Ermənistanın isə, belə deyək, Rusiya ilə hansısa münasibətləri əks olunub. Ermənistan hələ də Rusiyanın müttəfiqi, KTMT-nin üzvü olaraq qalır, lakin onun tərəfdən biz İrəvanda tamamilə acınacaqlı irimiqyaslı rusofobik mitinqlərin şahidi oluruq. Trend aydın şəkildə sabitləşir.

İndi isə Ermənistan bir daha əmin ola bilər ki, o, tarixin kənarında qalıb, perspektivi qeyri-müəyyən və tamamilə tutqun bir dövlətə çevrilib.

İndi Rusiyaya müəyyən təzyiq göstərmək üçün Qərb kartı ilə oynamaq cəhdi tamamilə əbəsdir. Əgər nə ABŞ, nə də "kollektiv Qərb" Rusiyanın qəbul etdiyi müəyyən qərarları dəyişməyə məcbur edə bilmirsə, onda Ermənistan haqqında nə deyə bilərik. O, Kremlə diktə etmək iqtidarında deyil.

Ermənistan bir daha gördü ki, onun qeyri-konstruktiv mövqeyi heç bir halda Rusiyaya təsir göstərə bilməyəcək. Biz Cənubi Qafqaz regionunda iştirak edirik və regionda əsas geosiyasi və hərbi oyunçu olaraq qalacağıq.

Rusiyadakı erməni lobbisi güclü olsa da, son bir ildə öz təsirini itirib. Məsələ burasındadır ki, əgər əvvəllər Cənubi Qafqazdakı vəziyyətlə bağlı müəyyən siyasi qərarların qəbuluna hazırlıq sferasında erməni nöqteyi-nəzəri üstünlük təşkil edirdisə, son vaxtlar dövlət siyasəti Rusiyanın milli maraqlarına əsaslanır. Bu baxımdan, ötən 2022-ci ildə Xəzər Strateji Araşdırmalar İnstitutu fəal işləyib və o, həm də analitiklərini həm memos, həm də analitik hesabatlar şəklində Rusiya Federasiyasının əsas qərar qəbuletmə mərkəzlərinə təqdim edib. Müşahidə etdiyimiz dəyişikliklər regionda həqiqətən də baş verənləri dərk etməyə, müəyyən qurumlarda monopoliya mövqeyinin olmamasına əsaslanır. Ona görə də indi daha doğru qərarlar qəbul edilir. Bu, çox vacib bir vəziyyətdir. Rusiyanın milli maraqlarına daha həssas, praqmatik baxış son nəticədə, hətta ritorika səviyyəsində baş verən dəyişikliklərə gətirib çıxardı.

Tərcümə- Elçin Bayramlı

ANALİZ

SON SƏHİFƏ

səs

3 mart
2023-cü il

Bakıda mənzildən 120 min dollarlıq qızıl oğurlanıb

Bakıda mənzildən 120 min dollarlıq qızıl oğurlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, Səbail rayonunun Badamdar qəsəbəsindəki mənzillərin birindən oğurluq edilməsi barədə 41-ci Polis Bölməsinə məlumat daxil olub. Polis əməkdaşları müvafiq araşdırmalar aparıb və ötən ilin dekabr ayından bu il fevralın 26-dək olan müddətdə mənzildən 120.000 ABŞ dolları dəyərində qızıl-zinət əşyalarının qeyri-aşkar şəraitdə oğurlanması məlum olub. Keçirilən əməliyyat tədbirləri nəticəsində oğurluğun Bakı şəhər sakinləri S.Rzabəyli və tanışı E.Ağayev tərəfindən törədilməsinə əsaslı şübhələr müəyyən olunub və onlar saxlanılıblar. Faktla bağlı araşdırma aparılır.

Natəmizlik qorxulu xəstəliklərə səbəb olur

Sağlam və güclü bir immunitetə sahib olmaq üçün qidalanmadan tutmuş şəxsi gigiyenaya qədər nəzərə alınması lazım olan bir çox detal var. Bəs, şəxsi gigiyena nədir və niyə vacibdir?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Şəxsi qulluq insanların gözəl görünüş və sağlam bədənə sahib ola bilmələri üçün gündəlik etdikləri dəri təmizliyidir. Üzün yuyulması, əllərin yuyulması və dişlərin fırçalanması kimi əsas davranışlar şəxsi baxım sahəsinə aiddir. Sağlam olmaq üçün şəxsi gigiyenaya böyük diqqət yetirmək lazımdır. Sağlam bədənə sağlam və gigiyenik şəxsi qayğı ilə nail olmaq olar.

İnsan öz təmizliyinə diqqət yetirmək və ətrafa pis qoxular buraxmamaq üçün şəxsi qulluğuna fikir verməlidir. Bunun üçün gündə üç dəfə dişləri fırçalamaq, müəyyən aralıqlarla duş qəbul etmək, dezodorantdan istifadə etmək və s. lazımdır. Bəzən gündəlik həyatın tələşində özümüzə vaxt ayıra bilmirik. Lakin bunları bəhanə edib şəxsi gigiyenaya biganə yanaşmaq lazım deyil.

Şəxsi gigiyena insanın baxımlı olması üçün nə etməli olduğunu ifadə edən anlayışdır. Bu konsepsiya bədən, ağız və dişlər, əllər və ayaqlar və əsas səviyyədə saç baxımını əhatə edə bilər. Yəni həyatınızı təmiz və baxımlı şəkildə davam etdirmək üçün atmanız lazım olan addımları şəxsi baxım anlayışı ilə izah etmək mümkündür.

Digər tərəfdən, şəxsi gigiyenanın əhatə dairəsi müxtəlif qulluq texnikaları və məhsulları ilə genişləndirilə bilər. Bədənin aşındırılması dərinin cavanlaşması, manikür, pedikür, quru fırçalama, spa masajları və daha çox nümunələrlə şaxələndirilə bilər. Bu səbəbdən, fərdi baxım proseslərinin əsas səviyyəsi hər kəs üçün eyni olsa da, fərdi baxım prosesləri ehtiyaclara görə fərqlənə bilər.

Niyə şəxsi gigiyena bu qədər önəmlidir?

İnsanın özünü daha yaxşı hiss etməsi üçün edilə biləcək hər şey şəxsi baxım çərçivəsindədir. Çünki öz şəxsi qayğısına diqqət edən insanlar ətrafdakı insanlara daha gözəl görünür və cəmiyyətdə də yaxşı yer tuturlar. Nəticədə özlərini yaxşı və xoşbəxt hiss edirlər.

"Şəxsi gigiyena nədir?" sualının cavabını bilməyən və ya kifayət qədər əhəmiyyət verməyən insanların fiziki sağlamlığı ideal səviyyədə ola bilməz. Bu, təbii olaraq müxtəlif xəstəliklərə yol açır. Təmiz və baxımlı olmaq özünüzə inamınızı artıracaq, sizi daha xoşbəxt edəcək və enerjinizi digər insanlara əks etdirməyə kömək edəcəkdir. Buna görə də, şəxsi qayğının həyatın demək olar ki, hər sahəsini əhatə edən bir anlayış olduğunu iddia etmək səhv olmaz. Bütün insanların diqqət etməli olduğu fərdi baxım prosesləri təəssüf ki, cəmiyyətdə qadınlara xas bir məsələ kimi qəbul edilir. Bununla belə, hər kəs sağlam həyat sürmək, başqalarına gözəl görünmək və özünü xoşbəxt hiss etmək üçün şəxsi qayğısına laqeyd yanaşmamalıdır. Gəlin əsas şəxsi qayğı təcrübələrinə birlikdə nəzər salaq.

Bədən baxımı

Bədənin bütün hissələrinin təmizlənməsi şəxsi qulluğun əvəzsiz hissəsidir. Bu səbəbdən bədən baxımı üçün həftədə ən az üç dəfə duş qəbul etməyinizi tövsiyə edirik. Duş zamanı bədən tipinizə xas təmizləyici vasitələrlə bədəninizin yaxşıca təmizləndiyinə əmin olmalısınız. Duşdan çıxdıqdan sonra bədəninizi lazımi nəmlə təmin etmək üçün bütün bədəninizi nəmləndirici losyonla nəmləndirmək vacibdir. Bundan əlavə, bədən spreyi istifadə edərək bədəninizə xoş bir qoxu verməniz sizin üçün faydalı olacaq.

Bədən baxımına biganə yanaşmaq əsasən də qadınlarda ciddi infeksion qadın xəstəliklərinə səbəb ola bilər. Belə ki, bunlardan biri də vaginal göbələkdir. Kandidoz olaraq da bilinən vaginal göbələk infeksiyası qadınlarda ümumi bir sağlamlıq problemidir. Normal şəraitdə vaginal florada bəzi bakterial və göbələk hüceyrələri var. Ancaq bakteriya və göbələklərin balansı dəyişdikdə, candida adlanan göbələk hüceyrələri çoxalda bilər. Bu vəziyyətdə, şiddətli qaşınma, şişlik, axıntı və qıcıqlanma ilə xarakterizə olunan kandidoz adlanan vaginal infeksiya meydana gəlir. Simptomlar adətən dərman qəbul etməklə bir neçə gün ərzində yox olur. Daha ciddi infeksiyalarda simptomların aradan qalxması iki həftə çəkə bilər. Vaginal göbələk infeksiyası olduqdan sonra bunun təkrarlanma ehtimalı artır. Vaginal göbələk riskini azaltmaq üçün pambıq və dar olmayan alt paltarlara üstünlük verilməlidir. Bundan əlavə, aşağıdakılardan qaçınmaq bu infeksiya riskini azaltmağa kömək edə bilər:

- Dar şalvar geyinmək olmaz.
- Köpüklü vannalar, pedlər və tamponlar kimi ətirli məhsullar olmaz.
- Jakuzi və ya həddindən artıq isti su ilə vannalar olmaz.
- Soyuqdəymə kimi viral infeksiyalar üçün antibiotiklərin lazımsız istifadəsi olmaz.
- Üzgüçülük və idman paltarları kimi yaş paltarları uzun müddət əyindən çıxarmamaq yanlışdır.

Bir sözlə insanların ümumi istifadə etdiyi şəxsi baxım məhsullarından qadınlar vaginal göbələk infeksiyasına yoluxa bilər. Buna misal olaraq Türkiyədəki zəlzələdən sonrakı mənzərəni nəzərdən keçirək. Belə ki, zəlzələdən sonra insanlar müvəqqəti çadır və sığınacaqlara yerləşdirildi. Bildyimiz kimi, belə yerlərdə də əsasən ayaqyolu ümumidir. Bu halda da infeksiya riski çox yüksəkdir. Həmçinin, duş qəbul etmək üçün də əlverişli şərait olmaya bilir. Bu baxımdan da infeksiya qaçınılmazdır. Arzuolunmaz tüklərin müntəzəm aradan qaldırılması da şəxsi qulluq sahəsinə daxildir. Bu həm kişilərə, həm də qadınlara aiddir.

Saça qulluq

Gün ərzində havada olan mikroblara, toza və tüstüyə məruz qalan saçlarınıza qulluq həm gigiyenanız, həm də görünüşünüz üçün önəmlidir. Saç baxımının ilk addımı olaraq saçınızı mütəmadi olaraq yumaq lazımdır. Ancaq məşhur inancın əksinə olaraq, saçınızı hər gün yumaq baş dərisinin qurumasına və saçınızın təbii quruluşunun pozulmasına gətirib çıxarır. Bu səbəbdən saçınızı iki-üç gündə bir saç tipinizə uyğun şampunla yumaqda fayda var. Digər tərəfdən, saçınızın ehtiyaclarına uyğun olaraq zaman-zaman qulluq məhsulları tətbiq edərək saçlarınızın daha sağlam görünməsini təmin edə bilərsiniz. Bundan əlavə saç tipinizə xas təbii saç baxım maskaları ilə dolğun, yumşaq və parlaq saçlara sahib olmaq mümkündür.

Diş və ağız baxımı

Yemək və içki qalıqları dişlərin üzərində toplandığı üçün dişlərinizi müntəzəm fırçalamaq şəxsi gigiyena baxımından böyük əhəmiyyət kəsb edir. Dişlər arasında yığılan qalıqları təmizləmək üçün diş ipindən də istifadə etməlisiniz. Dişləriniz sarıdırsa, diş ağardıcı vasitələrdən istifadə edib, müntəzəm olaraq diş həkiminizə müraciət edə bilərsiniz.

Əl və ayaqlara qulluq

Əllərinizə və ayaqlarınıza qulluq etmək son dərəcə vacibdir, çünki onlar bədəninizin ən çox istifadə etdiyiniz hissələridir. Bu mənada çöldən evə qayıdanda ilk növbədə əllərinizi yuyub dırnaqlarınızın arasını təmizləməlisiniz. Yeməkdən əvvəl və sonra əllərinizi bol su və sabunla yuduğunuzdan da əmin olmalısınız. Dırnaqlarınızı oval formada kəsməyinizi və sonra dırnaqlarınızı kəsərkən kənarlarının çox düz olmamasını məsləhət görürük. Sonra nəmləndirici krem çəkərək şəxsi baxımınızı tamamlaya bilərsiniz. Bundan əlavə, hər iki həftədən bir manikür və ayda bir dəfə pedikür etməlisiniz.

Üz baxımı

Üz baxımı səhər oyandığınız andan başlayır. Hər səhər yuxudan duran kimi üzünüzü dəri tipinizə uyğun sabunla yumalısınız. Bundan əlavə, hər gün və ya iki gündə bir üz təmizləyici gel ilə üzünüzü masaj edərək üzünüzü yumalı və dərinizin dərindən təmizlənərək tərəvətləndirilməsini təmin etməlisiniz. Hər yumadan sonra isə üzünüzü nəmləndirin.

Cərrah, mama-ginekoloq Ləman Əliyeva: "Zəlzələ bölgəsindəki insanlar günlərlə natəmiz şəraitdə dağıntılar altında qalıblar. Əlbəttə ki,insanların günlərlə belə şəraitdə qalması çox çətindir və ciddi problemdir. Düşünün ki, bu dağıntılar altında cəsədlər də var ki, bu da xəstəliklərə səbəb olur. Hələ havaların soyuq olması bir sıra infeksiyaların qarşısını alır. Təsəvvür edin ki, hava isti olsa idi nələr baş verə bilərdi...

Bundan əlavə belə yerlərdə ayaqyolu da ümumidir. Bu da cinsi yolla keçən infeksiyaların yayılmasına və natəmiz şəraitdə mikrobların inkişaf etməsinə səbəb olur. Həmçinin, sudan da bağırsaq infeksiyaları kimi xəstəliklər keçə bilər. Daha sonra, zəlzələ nəticəsində insanların bir çoxunun geyimi kirli və tozludur. Əgər şəxslərin bədənində açıq yara varsa, bu dəri qatından, yaxud ağız-burun yolundan keçə bilər".

Həkim infeksionist Leyla Əmrahova: "İnfeksiyalar daha çox immun sistemi zəif olan yetişkin və uşaqlar arasında rast gəlinir. Güclü zəlzələdən sonra insanlar dağıntılar altında qalır və ölüm halları olur. Bir qrup insanlar isə dağıntılar altından xilas olsalar da travmalar və infeksion xəstəliklər nəticəsində həyatlarını itirirlər. Bu infeksiyaların yaranmasına da bir çox faktorlar səbəb olur. Bu infeksiyalar su, elektrik, kanalizasiya, qaz təhcizatlarının pozulması, insanların toplu şəkildə bir yerdə qalmaları, həmçinin yetərsiz qidalanma, təmiz içmə suyunun olmaması və s.səbəblərdən qaynaqlanır.

Təmiz içməli suyun olmaması və yetərsiz qidalanma ishallara, rotavirus, adenovirus infeksiyalarına, hepatit A və s. xəstəliklərə səbəb ola bilər. Bundan başqa, əsasən uşaqlar arasında yuxarı və aşağı tənəffüs yolları infeksiyaları, dəridə piodermiya kimi infeksiyalar da artım göstərir".

Ayşən Vəli

ELAN

Azərişıq ASC tərəfindən Nihad Hafiz oğlu Abdullayevin adına verilmiş xidməti vəsiqə (ID CARD NO: 020034) itdiyi üçün etibarsız hesab olunur.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600

ARXİVİ